KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 416 Aprel 2022



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org





# "DÜNYA" MƏKTƏBİNDƏ NAİLƏ XANIM MUZEYİ`NİN AÇILIŞI

Aprelin 1-də Xəzər Universiteti rəhbərliyinin görkəmli pedaqoq, təhsil təşkilatçısı Nailə xanım İsayevanın xatirəsini əbədiləşdirmək üçün qərarına əsasən "Dünya" məktəbində Nailə xanım Muzeyi`nin açılışı oldu.

Tədbirdə Xəzər Universiteti və "Dünya" məktəbinin rəhbərliyi və əməkdaşları iştirak edirdilər.

Universitetin Kamera orkestri Nailə xanım İsayevanın musiqi əsərlərini ifa etdikdən sonra İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı tədbiri açaraq, muzeyin yaradılması və açılışı ilə əlaqədar iştirakçıları təbrik etdi. Nailə xanım İsayevanın xatirəsini əbədiləşdirmək üçün nəzərdə tutulmuş tədbirlər sırasında muzeydən əlavə Nailə xanım Fondu`nun təsis edildiyini, fondun təsis etdiyi Nailə xanım Təqaüdü`nün artıq təqdim olunduğunu, üç nəşrin – xatirələr, mahnılar kitabları və fotoalbomun da  çapdan çıxdığını, digərlərinin də tezliklə reallaşacağını bildirdi.

*(Ardı səh.6-da)*







# OPENING OF NAILA KHANUM MUSEUM IN DUNYA SCHOOL

On April 1, the Naila Khanum Museum was opened at Dunya School, in accordance with the decision of Khazar University administration to perpetuate the memory of Naila Khanum Isayeva, the prominent pedagogue and education organizer.

The event was attended by the administration and staff membersof Khazar University and Dunya School.

After the University Chamber Orchestra performed musical works by Naila Khanum Isayeva, Vice-Rector for Management and Student Affairs Isakhan Isakhanli opened the event and congratulated the participants on the establishment and opening of the museum. He said that the measures taken to perpetuate the memory of Naila Khanum Isayeva are not limited to this and along with the museum, three publications - memoirs, song books and a photo album - have already been published, and others will be realized soon.

*(To be continued page 7)*



# İÇİNDƏKİLƏR

**"Dünya" məktəbində Nailə xanım Muzeyi`nin açılışı (*əvvəli səh.2-də*)....................6**
**Nailə xanım İsayevanın xatirəsinə həsr olunmuş kitablar ........................................8**
**Ölkənin görkəmli ziyalıları Nailə xanım Muzeyi`ndə ..............................................12**
**Xəzər Universiteti dünyanın ən yaxşı universitetləri arasında ..............................18**
**Professor, akademik Hamlet İsaxanlı Xalq artisti Ramiz Quliyevin 75 illiyinə həsr olunmuş elmi-praktik konfransda...................................................................................19**
**Xəzər Universitetində 31Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir ..............................................................................................................................20**
**Universitetin əcnəbi doktorantının dissertasiya işinin ilkin müzakirəsi............23**
**İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin tələbələri Qobustan palçıq vulkanını ziyarət ediblər.................................................................................25**
**Xəzər Universitetinin əməkdaşları Braqança Politexnik İnstitutunda ................26**
**İtaliya və ABŞ universitetlərinin professorları ilə görüş ..........................................28**
**Creative Spark layihəsi çərçivəsində "İdeyan varsa gəl" adlı məlumatlandırıcı görüş.........................................................................................................29**
*Məhin Cəbrayılova*. **"Xəzər"in tələbəsi Ramal Quluzadənin Lille səfəri ilə bağlı təəssüratları.........................................................................................................31**
**"Xəzər"in əməkdaşları "Gələcək üçün bacarıqlar: Gələcək üçün birgə" hesabat tədbirində .......................................................................................................34**
*Şəlalə Ana Hümmətli*. **"Mən gözəl bir süfrə açdım sözdən əhli-aləmə" ..................36**
**"Xəzər"də yubiley tədbiri................................................................................................38**
*Hamlet İsaxanlı*. **Gəncə lövhələri və əsgərlik...............................................................40**
**Xəzər Universitetinin Türkiyə təmsilçisinin təqdim olunması ilə bağlı tədbir.60**
**"Elm və Sənət Məclisi"nin növbəti məşğələsi .............................................................65**
*Ləman Həşimova*. **Eqo öldüyündə ruh oyanar (*esse*) ..................................................66**
**Kanon şirkətinin əməkdaşları "Xəzər"də ....................................................................75**

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**Opening of Naila Khanum Museum in "Dunya" School** (*the beginnig is on the page3*) ......7
**Books Dedicated to the Memory of Naila Khanum Isayeva** ......8
**Outstanding Intellectuals of the Country at Naila Khanum Museum** ......13
**Khazar University is Among Top World Universities** ......18
**Professor, academician Hamlet Isakhanli at the scientific-practical conference dedicated to the 75th anniversary of People's Artist Ramiz Guliyev** ......19
**An event dedicated to March 31 - the Day of Genocide of Azerbaijanis was held at the University** ......20
**Students at the Graduate School of Economics and Business Visit Gobustan Mud Volcano** ......25
**Khazar University staff at Polytechnic Institute of Bragança** ......26
**Meeting with Professors From Italian and US Universities** ......28
*Mahin Jabrailova.* **Impression of Khazar University Student Ramal Guluzadeh on his visit to Lille** (*in Azerbaijani*) ......31
**Staff of Khazar University at "Skills for the Future: Together for the Future" report event** ......34
**Shelale Ana Hummatli. Poetry Assembly Dedicated to Fizuli** (*in Azerbaijani*) ......36
**Jubilee Event at Khazar University** ......38
*Hamlet İsakhanli.* **Ganca Period and Millitary Servive** (*in Azerbaijani*) ......40
**An event dedicated to the presentation of Khazar University's Turkish representative** ......60
**Next Session of "Assembly of Science and Art" Held** ......65
*Laman Hashimova.* **When the ego dies, the soul awakes** (*essay, in Azerbaijani*) ......66
**Canon Employees at Khazar University** ......75

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



# "DÜNYA" MƏKTƏBİNDƏ NAİLƏ XANIM MUZEYİ`NİN AÇILIŞI

(*Əvvəli səh.2-də*)





"Dünya" məktəbinin Azərbaycan və rus bölmələrinin tədris işləri üzrə direktoru Mərufə Mədətli, Sumqayıt "Dünya" məktəbinin direktoru Çiçək Qaracayeva, Xəzər Universitetinin müəllimi Roza Arazova çıxış edərək, uzun illər ərzində birgə çalışdıqları Nailə xanımın "Dünya" məktəbinin qurucusu kimi yenilikçi, məqsədyönlü fəaliyyəti və qayğıkeş, diqqətcil şəxsiyyəti haqqında ürək sözlərini söylədilər.

Muzeyin tərtibçi-dizayneri, universitetin Dekorativ-Tətbiqi Sənət Muzeyinin direktoru, xalçaçı rəssam Afaq Kərimova muzeyin quruluşu və tərtibi haqqında məlumat verdi.

Sonra "Dünya" məktəbi və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı ailə üzvlərinin iştirakı ilə lenti kəsərək, müzeyin açılışını etdi.

Muzeyə daxil olan iştirakçılara Afaq Kərimova Nailə xanım İsayevanın həyat və fəaliyyətini, işgüzar və yaradıcılıq əlaqələrini dolğun əks etdirən fotostendlər, eksponatlar və şəxsi əşyaları haqqında məlumat verdi, Nailə xanım İsayevanın müzeydəki büstünün Xəzər Universitetinin müəllimi, heykəltəraş Kamran Əsədov tərəfindən hazırlandığını bildirdi.

Muzeyə baxışdan sonra iştirakçılar çay süfrəsi ətrafında təəssüratlarını bölüşdülər. Muzeyin yüksək peşəkarlıq və zövqlə tərtib edildiyi qeyd olundu.



# OPENING OF NAILA KHANUM MUSEUM IN DUNYA SCHOOL

(*The beginning is on the page 3*)

Marufa Madatli, Director for Academic Affairs of the Azerbaijani and Russian sectors at Dunya School, Chichek Garajayeva, Director of Sumgayit Dunya School, and Roza Arazova, the lecturer at Khazar University, spoke about Nailakhanum's innovative, purposeful, caring, and attentive personality as the founder of the Dunya School.

The designer of the museum, the director of the University's Museum of Decorative and Applied Arts, carpet artist Afag Karimova gave information about the structure and design of the museum.

Then, the founder of Dunya School and Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli, cut the ribbon with the participation of family members and inaugurated the museum.

Afag Karimova informed the participants about the photo stands, exhibits and personal belongings of Naila Khanum Isayeva, which fully reflect her life and activity, business and creative ties and itwas noted that the bust of Naila Khanum Isayeva in the museum was made by Khazar University lecturer and sculptor Kamran Asadov.

After visiting the museum, participants shared their impressions around the tea table. It was noted that the museum was designed with high professionalism and taste.

## NAİLƏ XANIM İSAYEVANIN XATİRƏSİNƏ
## BOOKS DEDICATED TO THE MEMORY

*Xəzər Universiteti Nəşriyyatında Nailə xanım İsayevanın xatirəsinə həsr olunmuş "Nailə xanım muzeyi" (bələdçi kitabça), "Nailə xanım İsayeva xatirələrdə", Nailə xanım İsayevanın "Mahnılar", Cavanşir Quliyev və Sərdar Fərəcovun "Nailə xanım İsayevanın əziz xatirəsinə ithaf" adlı kitablar nəfis şəkildə çapdan çıxıb.*

*Nəşrlər usta pedaqoq, mahir təhsil təşkilatçısı, istedadlı musiqiçi Nailə xanım İsayevanın müasirlərinə məlum olan parlaq surətini, əvəzsiz xidmətlərini gələcək nəsillərə ötürmək, onun əziz xatirəsini əbədiləşdirmək üçün Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müəyyənləşdirdiyi tədbirlər silsiləsinə uyğun hazırlanaraq, çap edilmişdir. Bu barədəki qərar da nəşrlərin ilk səhifələrində təqdim olunur.*

*Nəşrlərdə Nailə xanım İsayevanın müxtəlif fotoşəkilləri, kitablarda qısa həyat tarixçəsi verilmişdir.*




### "NAİLƏ XANIM MUZEYİ"

(*Bələdçi kitabça*)

Bələdçi kitabçada muzeyin yaradılması, ümumi təsviri haqqında məlumat verilir. Qeyd edilir ki, muzeyin eksponatları Nailə xanım İsayevanın həyat və fəaliyyətini əks etdirən müxtəlif yazılı sənədlər, xatirə əşyaları, libaslar, incəsənət əsərləri, fotoşəkillər, şəxsi, pedaqoji və musiqi fəaliyyəti ilə bağlı yazı və kitablar, Nailə xanımın mahnılarını səsləndirən guşə və fortepiano-royal kimi maddi və mənəvi qaynaqlardan təşkil olunmuşdur.

Kitabçada muzeyin bölmələri haqqında məlumatla yanaşı, eksponatların fotoşəkilləri verilir, Azərbaycanın və xarici ölkələrin tanınmış təhsil, elm və sənət adamlarının, Xəzər Universiteti və "Dünya" məktəbi əməkdaşlarının Nailə xanım İsayeva haqqında fikirləri nəzərə çatdırılır.

Bələdçi kitabçanın daha təkmil nəşrinin hazırlanması nəzərdə tutulur.

### "NAILA KHANUM MUSEUM"

(*Booklet*)

The booklet (*in Azerbaijani*) provides information on the establishment and general description of the museum. It is noted that, the museum's exhibits include various written documents reflecting the life and activity of Naila Khanum Isayeva, souvenirs, clothes, various works of art, photographs, writings and books related to her personal, pedagogical and musical activities, material and spiritual resources such as the corner and grand piano playing Naila Khanum's songs.

The booklet provides information about the sections of the museum, the opinions of well-known figures of education, science and art of Azerbaijan and abroad about Naila Khanum Isayeva and includes photos of the museum exhibits.

A more advanced new edition of the booklet is planned.

# HƏSR OLUNMUŞ KİTABLAR
# OF NAILA KHANUM ISAYEVA

*Publications dedicated to Nailakhanum Isayeva's memory at Khazar University Publishing House: " Naila Khanım museum" (booklet), " Naila Khanum Isayeva in memories", "Naila Khanum Isayeva's "Songs", Javanshir Guliyev and Sardar Farajov "To the dear memory of Naila Khanum Isayeva" were elegantly printed.*

*The publications have been prepared and published in accordance with a series of events set by the Khazar University Board of Directors and Trustees to pass on to future generations the brilliant image of Naila Khanum Isayeva, a master educator, skilled education organizer, and talented musician, and to perpetuate her memory. The decision is also provided on the front pages of publications.*

## "NAİLƏ XANIM İSAYEVA XATİRƏLƏRDƏ"




Professor, akademik Hamlet İsaxanlının irihəcmli "Son görüş olmayaydı" xatirəsi ilə başlanan kitaba Nailə xanım İsayeva haqqında Xəzər Universitetinin, Bakı və Sumqayıt "Dünya" məktəbləri əməkdaşlarının, məzunları və şagirdlərinin, dost və qohumlarının, Azərbaycandan və xarici ölkələrdən bir sıra tanınmış təhsil, elm və sənət xadimlərinin, iş adamları və diplomatların xatirələri daxil edilmişdir. Xatirələr maraqlı fotoşəkillərlə müşayiət olunur.

Kitabın tərtibçisi və redaktoru İsaxan İsaxanlı, korrektoru Dilbər Zeynalovadır. Kompüter işi Zakir N. Yusifoğlu tərəfindən yerinə yetirilmişdir.

## "NAILA KHANUM ISAYEVA REMEMBERED"

The book (*in Azerbaijani*) that begins with a large memoir of professor, academician Hamlet Isakhanli "Wouldn't be the last meeting" includes memories of Naila Khanum Isayeva by Khazar University staff, alumni and students, friends and relatives, a number of well-known figures of education, science and art, businessmen and diplomats from Azerbaijan and abroad. Memories are accompanied by interesting photos.

The compiler and editor of the book is Isakhan Isakhanli, the proof-reader is Dilbar Zeynalova. Computer work was performed by Zakir N. Yusifoglu. The book has been elegantly published by Khazar University Publishing House.




## Nailə xanım İsayeva
## "MAHNILAR"

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlı kitaba qısa giriş sözü yazmışdır.

Nailə xanımın kitaba daxil edilmiş səkkiz mahnısının sözləri Hamlet İsaxanlınındır. Mahnılar nota köçürülmüş, fortepiano və səs üçün, həmçinin kamera orkestri və ya xalq çalğı alətləri orkestri üçün partiturası hazırlanmışdır.

Mahnıları fortepiano və səs üçün Cavanşir Quliyev, Sərdar Fərəcov, Ceyhun Allahverdiyev, Sevda Rəhimova, Ağaverdi Paşayev, Yeganə Axundova və Zülfiyyə Sadıqova işləmişlər.

Kitabın bədii tərtibatı Afaq Kərimovaya məxsusdur.

## Naila Khanum İsayeva
## "SONGS"

Khazar University Founder, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli wrote a brief introduction to the book (*in Azerbaijani*).

The lyrics of Naila Khanum 's eight songs included in the book are by Hamlet Isakhanli. Songs were transcribed, partition were developed for piano and sound, as well as for chamber orchestra or orchestra of folk instruments.

Javanshir Guliyev, Sardar Farajov, Jeyhun Allahverdiyev, Sevda Rahimova, Agaverdi Pashayev, Yegana Akhundova and Zulfiya Sadigov worked on the songs for piano and sound.

The artistic design of the book belongs to Afag Karimova. The book has been elegantly published by Khazar University Publishing House.

## Cavanşir Quliyev
## Sərdar Fərəcov

## "NAİLƏ XANIM İSAYEVANIN ƏZİZ XATİRƏSİNƏ İTHAF"

Kitab Cavanşir Quliyevin "Nailə" və Sərdar Fərəcovun "Elegiya" adlı əsərlərinin partiturasından ibarətdir.

## Javanshir Guliyev
## Sardar Farajov

## TO THE MEMORY OF NAILA KHANUM ISAYEVA A DEDICATION

The book (*in Azerbaijani*) consists of the partition of Javanshir Guliyev's "Naila" and Sardar Farajov's "Elegy".




***

## ARB TV-DƏ NAİLƏ XANIM MUZEYİ`NİN AÇILIŞI HAQQINDA SÜJET

## OPENING OF NAILA KHANUM MUSEUM ON ARB TV

Aprelin 4-də ARB TV-nin "Günə doğru" verilişində Xəzər Universitetinin "Dünya" məktəbində Nailə xanım Muzeyi`nin açılışından hazırlanmış süjet nümayiş etdirilib.

Muzeyin açılış tədbirini və eksponatlarını əks etdirən süjetdə tədbirin aparıcısı, Xəzər Universitütinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxalı və muzeyin tərtibçi-dizayneri, Xəzər Universiteti Dekorativ-Tətbiqi Sənət Muzeyinin direktoru, xalçaçı rəssam Afaq Kərimovadan qısa müsahibələr də alınmış, onlar muzey haqqında əlavə məlumatlar vermişlər.

On April 4, ARB TV's "Günə doğru" program aired a video of the opening of the Naila Khanum Museum at Khazar University's Dunya School.

The video, which features the museum's opening ceremony and exhibits, also includes short interviews with the host of the event, Khazar University Vice-Rector for Management and Student Affairs Isakhan Isakhali, and the museum's designer, director of the Khazar University Museum of Decorative and Applied Arts, carpet artist Afag Karimova. They provided additional information about the museum as well.

# ÖLKƏNİN GÖRKƏMLİ ZİYALILARI NAİLƏ XANIM MUZEYİ`NDƏ



Aprelin 9-da Xəzər Universitetinin "Dünya" məktəbində təsis edilmiş Nailə xanım Muzeyi`ndə ölkənin görkəmli ziyalıları üçün müzeylə tanışlıq tədbiri keçirildi.

Tədbirdə Xəzər Universiteti və "Dünya" məktəbinin rəhbərliyi, qonaqlar - Xalq yazıçısı Anar, Xalq şairi Ramiz Rövşən, xalq artistləri Siyavuş Kərimi, Alim Qasımov, Ramiz Həsənoğlu, Fidan Qasımova, Xuraman Qasımova, Fidan Hacıyeva, İlqar Muradov, Azər Zeynallı, Yeganə Axundova, akademik Rafiq Əliyev, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova və digərləri iştirak edirdilər.

*(Ardı səh.14-də)*



# OUTSTANDING INTELLECTUALS OF THE COUNTRY AT NAILA KHANUM MUSEUM



On April 9, an event was held at the Naila Khanum Isayeva Museum, established at Khazar University's Dunya School.

The event was attended by the administration and staff members of Khazar University and Dunya School, as well as well-known intellectuals of the country, public figures, scientists, writers, poets, singers - People`s writer Anar, People`s poet Ramiz Rovshen, People`s artists Siyavush Kerimi,Alim Gasimov,Ramiz Hesenoghlu,Fidan Gasimova, Khuraman Gasimova, Fidan Hajiyeva, Ilgar Muradov, Azer Zeynalli,Yegane Akhundova, academician Rafig Aliyev, the deputy chair of Azerbaijan Writers Union Reshad Mecid, the rector of Azerbijan University of Culture and Art Ceyran Mahmudova and others.

(*To be continued page 15*)





Universitetin Kamera orkestrinin ifasında Nailə xanım İsayevanın musiqi əsərləri ilə açılan tədbirdə İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı qonaqları salamlayaraq, Nailə xanım İsayevanın xatirəsini əbədiləşdirmək üçün yaradılan muzey və gələcəkdə görüləcək işlər haqqında ətraflı məlumat verdi. O qeyd etdi ki, Xəzər Universitetinin "Dünya" məktəbi nəzdində olan muzey təhsil sahəsində zəngin təcrübəsi, böyük əməyi, həmçinin musiqi bəstələri ilə tanınan Nailə xanım İsayevanın həyatını və ictimai fəaliyyətini xronoloji baxımdan əks etdirməklə yanaşı, Azərbaycanın tarixində iz qoyan, istər elm, təhsil, mədəniyyət, incəsənət sahəsində, istərsə də adı qəhrəmanlıq dastanlarında, bədii əsərlərdə məşhurlaşan qadınların xatirəsini əbədiləşdirmək, onları təbliğ etmək kimi təqdirəlayiq bir ideyanın daşıyıcısıdır.

*(Ardı səh.16-da)*





At the event, opened with the performance of Naila Khanum Isayeva's musical works by the University Chamber Orchestra, Vice-Rector for Management and Student Affairs Isakhan Isakhanli greeted the guests and gave them detailed information about the museum created to perpetuate the memory of Naila Khanum Isayeva and future works to be done. He noted that the museum at Khazar University's Dunya School not only reflects chronologically the life and public activities of Naila Khanum Isayeva, known for her rich experience in education, her hard work, and her musical compositions, but also is a commendable idea to immortalize and promote the memory of women who have left their mark on the history of Azerbaijan, whether in the field of science, education, culture, art, as well as in heroic epics and works of art.

(*To be continued page 16*)





Muzeyin tərtibçi-dizayneri, Xəzər Universitetinin Dekorativ-Tətbiqi Sənət Muzeyinin direktoru, xalçaçı rəssam Afaq Kərimova muzeyin quruluşu və tərtibi haqqında qonaqlara məlumat verdi, onları Nailə xanım İsayevanın həyatını, fəaliyyətini, şəxsi geyim və əşyalarını əks etdirən stendlərlə, yaradıcılığının 8 incisi olan musiqiləri, mahnıları not və illüstrasiya formasında göstərən böyük həcmli musiqi vitrini ilə tanış etdi.

Qonaqlar muzeyə baxışdan sonra rəy kitabına ürək sözlərini yazdılar və çay süfrəsi ətrafında təəssüratlarını, Nailə xanım haqqında xatirələrini bölüşdülər.

Tədbirin sonunda "Nailə xanım İsayeva xatirələrdə" kitabı qonaqlara hədiyyə olundu.

The designer of the museum, the director of Khazar University Museum of Decorative and Applied Arts, carpet artist AfagKarimova informed the guests about the structure and design of the museum, acquainted them with the stands reflecting the life, activity, personal clothes and belongings of Naila Khanum Isayeva, music, songs in the form of notes and illustrations, which are the 8 pearls of her creativity.

Guests visiting the museum wrote their words of heart in the comments book and shared their impressions and memories about Naila khanum at the tea table.

At the end of the event, the book "Nailakhanum Isayeva in memories" was presented to the guests.



***

## *ARB TV*: ÖLKƏNİN GÖRKƏMLİ ZİYALILARININ NAİLƏ XANIM MUZEYİ İLƏ TANIŞLIĞI

## *ARB TV*: ACQUAINTANCE OF THE COUNTRY'S PROMINENT INTELLECTUALS WITH NAILA KHANUM MUSEUM

2022-ci il aprelin 9-da *ARB* TV-nin "Günə doğru" verilişində ölkənin görkəmli ziyalılarının aprelin 8-də Xəzər Universitetinin "Dünya" məktəbində Nailə xanım Muzeyi ilə tanışlığı haqqında süjet təqdim olunub.

Tədbirdən çəkilişlərlə yanaşı, Xalq şairi Ramiz Rövşən, xalq artistləri Xuraman Qasımova, Yeganə Axundova, Fidan Hacıyeva və tarixçi-alim Solmaz Tohididən qısa müsahibələr də alınmışdır. Onlar Nailə xanım haqqında xatirələrini bölüşmüşlər.

On April 9, 2022, *ARB* TV's "Günə doğru" program aired a video about the country's prominent intellectuals getting acquainted with the Naila Khanum Museum on April 8 at Khazar University's Dunya School.

Short interviews were received from People's Poet Ramiz Rovshan, People's Artists Khuraman Gasimova, Yegana Akhundova, Fidan Hajiyeva and historian-scientist Solmaz Tohid. They shared their memories about Naila Khanum.

*https://youtu.be/PuQYVmoMTyI*

# THE IMPACT RANKINGS 2022

## XƏZƏR UNİVERSİTETİ DÜNYANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİ ARASINDA

## KHAZAR UNIVERSITY IS AMONG TOP WORLD UNIVERSITIES

2022-ci il aprelin 27-də dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2022-ci il üçün BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyənləşdirərək reytinq cədvəlini açıqlayıb. Reytinqin 4-cü nəşrinə 94 ölkədən 1406 universitet daxil edilmişdir.

Xəzər Universiteti Azərbaycandan bütün sahələr üzrə ən yüksək nəticə göstərərək, reytinq cədvəlində 601-800 aralığında qərarlaşıb.

Xəzər Universiteti Təhsilin keyfiyyəti üzrə 201-300 aralığında yer tutaraq, təhsil sahəsindəki öz keyfiyyət göstəricisini bir daha təsdiqləyib. Beləliklə, Xəzər Universiteti sahələrin 1-i üzrə 101-200-cü yerdə, 2-si üzrə 201-300-cü yerdə, 4-ü üzrə 301-400-cü yerdə, 1-i üzrə 401+ yerdə, 3-ü üzrə 601-800-cü yerdə, 7-i üzrə isə 401-600-cü yerdə qərarlaşmışdır.

Reytinqlə tanışlıq üçün bu linkdən istifadə etmək olar:

On April 27, 2022, Times Higher Education (THE), one of the world's most influential rating agencies, identified the world's best universities for their social and economic contributions based on the UN Sustainable Development Goals for 2022 and announced the ranking table. The 4th edition of the ranking includes 1406 universities from 106 countries.

Khazar University ranks 601-800 in the rankings, with the highest results in all areas from Azerbaijan.

Khazar University has proved its quality of education, beingin the 201-300 range for the quality of education in the rankings.

So, Khazar University ranks between the 101-200 range in 1 of the fields, 201-300 in 2 fields, 301-400 in 4, 401+ in 1, and 601-800 in 3 and 401-600 in 7.

You can use this link to learn more about the rating:

*https://www.timeshighereducation.com/rankings/impact/2022/overall#!/page/0/length/25/sort_by/rank/sort_order/asc/cols/undefined*



## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI XALQ ARTİSTİ RAMİZ QULİYEVİN 75 İLLİYİNƏ HƏSR OLUNMUŞ ELMİ-PRAKTİK KONFRANSDA

## PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT THE SCIENTIFIC-PRACTICAL CONFERENCE DEDICATED TO THE 75TH ANNIVERSARY OF PEOPLE'S ARTIST RAMIZ GULIYEV

Aprelin 27-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) Azərbaycanın görkəmli ustad sənətkarı, Dövlət mükafatı laureatı, Xalq artisti Ramiz Quliyevin 55 illik yaradıcılıq fəaliyyəti və 75 illiyinə həsr olunmuş "Tar sənətinin zirvəsində" adlı elmi-praktik konfransı keçirilib.

Ölkənin mədəniyyət və təhsil ictimaiyyəti nümayəndələrinin qatıldığı tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova da iştirak etmişlər.

BMA-nın rektoru, Xalq artisti Fərhad Bədəlbəyli tədbiri giriş nitqi ilə açdıqdan sonra mədəniyyət və təhsil müəssisələrinin rəhbər işçiləri və əməkdaşları çıxış edərək, ustad sənətkarın elmi fəaliyyətindən, gənc ifaçıların yetişməsində böyük zəhmətindən söhbət açıblar.

Professor, akademik Hamlet İsaxanlı çıxışında xüsusilə qeyd etmişdir ki, mahir tarzən Ramiz Quliyevi Xəzər Universiteti ilə uzun illər ərzində sıx dostluq və əməkdaşlıq telləri bağlayır. O, universitetin mühüm tədbirlərində ya öz tarı ilə, ya da fəxri qonaq kimi iştirak edir. Universitetdə onun yaradıcılıq gecəsi də böyük təntənə ilə keçirilmişdir.

Sonda Ramiz Quliyev çıxış edərək, iştirak və çıxış edən qonaqlara təşəkkürünü bildirib.

*AZƏRTAC* və digər saytlar tədbir haqqında xəbər yayımlamışlar:

On April 27, Baku Music Academy (BMA) named after Uzeyir Hajibeyli hosted a scientific-practical conference "At the peak of tar art" dedicated to the 55th anniversary of his creative activity and 75th birth anniversary of prominent Azerbaijani artist, State Prize Laureate, People's Artist RamizGuliyev.

The event, attended by representatives of the country's cultural and educational community, was also attended by Khazar University Founder, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli, and Head of the University's Music and Art Department, Honored Teacher, Pianist Zulfiya Sadigova.

After Rector of BMA, People's Artist Farhad Badalbeyliopened the event with an introductory speech, administrative and staff members of cultural and educational institutions spoke about the scientific activity of the great master of art, his great contribution to the development of young performers.

Professor, Academician Hamlet Isakhanli, emphasized in his speech that the talented tar player Ramiz Guliyev has had close ties of friendship and cooperation with Khazar University for many years.

He participates in important events of the university either as a tar player or as a guest of honor. His creative evening was also held at the university with great solemnity.

At the end, Ramiz Guliyev thanked the guests for their participation and speeches.

*AZERTAC* and other sites published news about the event:

*https://azertag.az/xeber/BMA_da_elmi_praktiki_konfrans___Tar_senetinin_zirvesinde-2112449*

-

# XƏZƏR UNİVERSİTETİNDƏ 31MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ BAĞLI TƏDBİR

*Tədbir haqqında AZƏRTAC-ın xəbərini təqdim edirik*

# AN EVENT DEDICATED TO MARCH 31 - THE DAY OF GENOCIDE OF AZERBAIJANIS HELD AT THE UNIVERSITY

*We present the news of AZERTAC about the event*

Aprelin 2-də Xəzər Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı günü ilə bağlı "Əbədi Birlik" Gənclər İctimai Birliyinin nəzdində fəaliyyət göstərən "Yazıçılar klubu"nun "Şəhid ruhlar eşqinə" adlı tədbiri keçirilib. Ev sahiblərindən başqa Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Mühəndislik Universiteti və başqa ali təhsil ocaqlarının qatıldığı tədbirdə şəhid Oktay Səfərovun anası Zülfiyyə Səfərova, millət vəkilləri Vüqar İskəndərov və Naqif Həmzəyev də iştirak edib.

Anım mərasimini giriş sözü ilə açan Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlı bildirib ki, 1918-ci il 31mart - 3 aprel tarixlərində Bakı soveti və onların işğalçı-cəza qüvvələrinə qarışan daşnaksütyunçular tərəfindən törədilmiş kütləvi qırğınların hamıya məlum dəhşətli tarixçəsindən geniş danışılmayacaq,

On April 2, Khazar University hosted an event titled "For the Love of Martyrs 'Souls" by the Writers' Club, which operates under the Eternal Unity Youth Public Union, on March 31 - the Day of Genocide of Azerbaijanis. In addition to the hosts, the event was attended by Baku State University, Azerbaijan State University of Culture and Arts, Baku Engineering University and other higher education institutions, as well as, Martyr Oktay Safarov's mother Zulfiya Safarova, MPs Vugar Iskandarov and Nagif Hamzayev.

In his opening remarks, Gardashkhan Azizkhanli, the lecturer at Khazar University's Department of Languages and Literature, said that the horrific history of the massacres committed by the Baku Soviet and their occupiers on March 31-April 3, 1918, will not be widely discussed, but scenes prepared by students trying to reflect those days will





amma həmin günlərin mənzərəsini əks etdirməyə çalışan tələbələrin hazırladıqları səhnəciklər nümayiş etdiriləcək. Q.Əzizxanlı "Azərbaycan Araşdırmaları Jurnalı"nda (Journal of Azerbaijani Studies) professor Akademik Hamlet İsaxanlının həmmüəllifi olduğu "Erməni terrorizmi və Azərbaycanda türk-müsəlman genosidi" adlı məqaləsinin ingiliscə dərc edilməsindən sonra ABŞ-ın Nevada ştatının qubernatoru Cim Qibbons`un ABŞ hökumət dairələrində ilk dəfə mart ayının 31-ni "Azərbaycanlıların Anım Günü" elan etdiyini də vurğulayıb.

Vüqar İskəndərov bolşeviklərin böyük dövlətçilik siyasətinin labüd nəticəsi olan soyqırımı Azərbaycanda milli istiqlala qarşı açıq-aydın sui-qəsd adlandırıb. O, çıxışında daha çox çağdaş Azərbaycan gəncliyinin qarşısında duran vəzifələrə toxunaraq, gənclərin vətənpərvər kimi böyüməsində bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətini xüsusi qeyd edib, eyni zamanda, onların təhsildə, ölkə həyatında getdikcə daha çox uğurlara imza atmasından qürur duyduğunu dilə gətirib. Millət vəkili bilik, savad və kommunikasiyanın müvəffəqiyyətin rəhni olduğunu deyib, bu vacib keyfiyyətlərə mükəmməl yiyələnməyi tövsiyə edib. Müxtəlif ali təhsil ocaqlarında oxuyan tələbələrin bir araya gəlməsini alqışlayan V. İskəndərov onları öz əlaqələrini genişləndirməyə və dövlət

be demonstrated. G. Azizkhanli emphasized that after the publication of the article "Armenian terrorism and the Turkish-Muslim genocide in Azerbaijan" co-authored by Professor academic Hamlet Isaxanli in the Journal of Azerbaijani Studies, in English, Nevada Governor Jim Gibbons declared March 31 "Azerbaijanis Remembrance Day" for the first time in US government circles.

Vugar Iskandarov called the genocide, an inevitable result of the Bolshevik policy of great statehood, a clear conspiracy against national independence in Azerbaijan. In his speech, he touched upon the tasks facing the youth of modern Azerbaijan, emphasizing the importance of such events in the growth of young people as patriots, and said he was proud of their growing success in education and life of the country. He said that knowledge, literacy and communication are the key to success, and recommended to master these important qualities. Welcoming the students of different universities, V. Iskandarov called on them to expand their ties and unite more closely around the head of state.

Nagif Hamzayev also said that he wanted to go back in time as a historian, and brought to the attention of young people some similar historical facts. He noted that the genocide of Azerbaijanis in Baku, Shamakhi,

başçısı ətrafında daha sıx birləşməyə çağırıb.

Naqif Həmzəyev, həm də bir tarixçi kimi keçmişə ekskurs etmək istədiyini söyləyərək, bəzi analoji tarixi faktları gənclərin nəzərinə çatdırıb. Natiq qeyd edib ki, 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Xaçmazda, Salyanda, Lənkəranda, Naxçıvanda, Gəncə quberniyasında və başqa bölgələrdə baş verən azərbaycanlıların soyqırımı, əslində başqa formalarda çox-çox əvvəllərdən başlayıb, 1905-ci ildə və ondan qabaq zaman-zaman təkrarlanıb. "Biz Xalq Cümhuriyyətinin varisləriyik. Siz gənclər sovet dövründəki yalançı ideologiyanın, tarixin sizdən sonrakı nəsillərə ötürülməsinə imkan verməyin. Bu gün yazılmamış tariximizi şəhidlərimiz yazıb, sizsə unudulmuş tariximizi öyrənin və gələcək nəsillərə ötürün", – deyə millət vəkili çıxışını yekunlaşdırıb.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi Turizm işinin təşkili ixtisası üzrə II kurs tələbəsi Şahin Əliyev "Əbədi Birlik" Gənclər İctimai Birliyinin icraçı direktoru olaraq birliyin ümumi məqsədlərindən, şəhid və qazilərimizin tanıdılması, gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində görəcəkləri işlərdən danışıb.

Tədbir "Əbədi Birlik" Gənclər İctimai Birliyinin "Yazıçılar klubu"nun sədri və sədr müavini – Bakı Avrasiya Universitetinin tələbələri Leyla Ümid və Leyla Səfərlinin ssenarisi əsasında davam edib. Müxtəlif təhsil ocaqlarından bir araya gəlmiş tələbə yazarların rejissor Tural Əsgərovun dəstəyi ilə hazırladıqları səhnəcikləri və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Kamran Mustafazadənin ifa etdiyi "Ana, mən şəhid oldum", "Cənab leytenant", həm də "Xudayar təsnifi" adlandırılan "Vətən yaxşıdır", "Qarabağ" mahnıları ilə kövrək anlar yaşanıb, son mahnıya tamaşaçılar da qoşulub.

Şəhid anası Zülfiyyə Səfərova gənclərə xitabən: "Mən oğlumun əvəzində sizin kimi oğulları qazandım" deməsi hamını riqqətə gətirib, coşqu ilə qarşılanıb. Tədbirin sonunda Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Kənan Əkbərlinin çəkdiyi "Oktay Səfərovun portreti" anaya təqdim edilib. Azərbaycan Universitetinin tələbəsi videoqraf Zəhra Əhmədzadə tədbiri lentə alaraq, "Əbədi Birlik" Gənclər İctimai Birliyinin video fonduna bağışlayıb.

Guba, Khachmaz, Salyan, Lankaran, Nakhchivan, Ganja province and other regions in March-April 1918, in fact, began much earlier in other forms, and repeated from time to time in 1905 and before. In our territories, in the territory of the Safavids, in the Ottoman Empire, various terrorist organizations were established to carry out their nefarious intentions, and missionaries worked to convert Muslims to Christianity. Various

projects were implemented to destroy the Ottoman Empire, for which they created political parties of Armenians serving the Gregorian sect. "We are the heirs of the People's Republic. You young people, do not allow the false ideology and history of the Soviet era to be passed on to future generations. Our martyrs are the makers of our today's unwritten history and you should study our forgotten history and pass it on to future generations, "he said.

Shahin Aliyev, the second-year student majoring in tourism management at Khazar University's School of Economics and Management, spoke about the general goals of the union, the work to be done to introduce our martyrs and veterans, the effective spending of leisure time of young people.

The event continued on the basis of the script of Leyla Umid and Leyla Safarli, students of Baku Eurasian University - chairman and deputy chairman of the "Writers' Club" of the "Eternal Union" Youth Public Union. There were fragile moments with the scenes prepared by student writers from different educational institutions with the support of director Tural Askerov, and the songs " Ana, mən şəhid oldum ", "Cənab leytenant", " Xudayar təsnifi ", "Vətən yaxşıdır", "Qarabağ" performed by Kamran Mustafazadeh, the student of the Azerbaijan State Academy of Physical Culture and Sports and the last song was performed together with audience.

The words of the mother of the martyr Zulfiya Safarova to the youth: "I have gained such sons as you instead of my son" caused pity and enthusiasm.

At the end of the event, "Portrait of Oktay Safarov" painted by a student of the Azerbaijan State University of Economics Kanan Akbarli was presented to the mother. Videographer Zahra Ahmadzadeh, the student at the University of Azerbaijan, filmed the event and donated it to the video fund of the Eternal Union Youth Public Union.

*https://azertag.az/xeber/Xezer_Universitetinde_31_Mart___Azerbaycanlilarin_Soyqirimi_Gunu_ile_bagli_tedbir_kechirilib-2077100*



# UNİVERSİTETİN ƏCNƏBİ DOKTORANTININ DİSSERTASİYA İŞİNİN İLKİN MÜZAKİRƏSİ

# PRELIMINARY DISCUSSION OF THE DISSERTATION WORK OF A FOREIGN DOCTORAL STUDENT OF THE UNIVERSITY

Aprelin 7-də universitetin doktorantı Abdul-Rahman Balogun Muhammed-Shittu`nun "5802.01 - Təhsilin təşkili və planlaşdırılması" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "Yardımların və təqaüdlərin tələbələrin akademik dürüstlüyü və nailiyyət motivasiyasına təsiri (Əl-Əzhər və Xəzər Universitetləri nümunəsində)" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirildi.

Müzakirədə iddiaçı tərəfindən tədqiqat işində qarşıya qoyulmuş məqsədlər və alınmış nəticələr haqqında ətraflı məlumat verildi. Tədqiqat işinə rəsmi rəyçilərin rəyləri dinlənildikdən sonra iddiaçıya suallar verildi və geniş müzakirə aparıldı. Komissiyanın qərarına əsasən dissertasiya işinin müvafiq ixtisas üzrə Dissertasiya şurasına təqdim edilməsi barədə qərar qəbul edildi.

On April 7, the preliminary discussion of the dissertation presented by Abdul-Rahman Balogun Muhammad-Shittu, a doctoral student of the university, was held on the topic "Endowment and scholarship impact on academic integrity and achievement motivation of international students (A case study of Al-Azhar and Khazar Universities)" for the degree of Doctor of Philosophy in "5802.01 - Organization and Planning of Education".

During the discussion, the applicant gave detailed information about the objectives and results of the research. After hearing the opinions of official reviewers on the research work, the applicant was asked questions and a wider discussion was held. According to the decision of the commission, it was decided to submit the dissertation to the Dissertation Council on the relevant specialty.



## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN KOORDİNATORU DİLLƏR UNİVERSİTETİNDƏ TƏŞKİL EDİLMİŞ GÖRÜŞDƏ

## COORDINATOR OF ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT AT A MEETING HELD AT AZERBAIJAN UNIVERSITY OF LANGUAGES

Aprelin 8-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Milana Abbasova Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsinin təşkil etdiyi görüşdə iştirak etdi.

Görüşə Azərbaycanda ayrı-ayrı universitetlərdə tərcümə ixtisasının fəaliyyət göstərdiyi bölmələrin rəhbərləri və tərcümə ixtisasını tədris edən müəllimlər dəvət olunmuşdular.

Görüşdə Tərcümə ixtisasında tədrisin keyfiyyətinin artırılması məqsədi ilə yenilənən tədris planındakı fənlər və fənn proqramları müzakirə olundu, təcrübə mübadiləsi aparıldı.

On April 8, Milana Abbasova, Coordinator of the English Language and Literature Department at Khazar University, attended a meeting organized by the Translation Faculty of the Azerbaijan University of Languages.

The meeting was attended by heads of departments specializing in translation at various universities in Azerbaijan and teachers teaching translation.

The meeting discussed the subjects and subject programs in the updated curriculum in order to improve the quality of teaching in the field of translation and exchange of practice was held.

## XƏZƏR UNİVERSİTETİNİN EI-LINK R&D MƏRKƏZİ KONFRANS KEÇİRMİŞDİR

## KHAZAR UNIVERSITY'S EI-LINK R&D CENTER HELD A CONFERENCE

Aprelin 9-da Xəzər Universitetinin EI-link R&D Mərkəzi Bakıdakı Holiday INN otelində konfrans keçirmişdir.

Konfransda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı giriş sözü söylədi. O, universitet-sənaye münasibətləri və texnoparklar barədə tarixi ekskurslar etdi. Xəzər Universitetinin elmi araşdırma istiqamətini gücləndirmək siyasəti barədə məlumat verdi, eləcə də EI-linkin qurulma ideyası və böyük uğurlarından danışdı.

Konfrans EI-link tədqiqatçılarının öz layihələrini təqdim etməsi ilə davam etdi. Geniş müzakirə aparıldı. Hamlet İsaxanlı EI-linkin yeni ofisi ilə də tanış oldu.

On April 9, Khazar University's EI-link R&D Center hosted a conference at Holiday INN Hotel in Baku.

Professor, Academician Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, gave an introductory speech at the conference. He made historical excursions on university-industrial relations and techno parks. He spoke about Khazar University's policy of strengthening scientific research, as well as the idea of establishing EI-link and its great successes.

The conference continued with the presentation of the projects by EI-link researchers. There was a wide discussion. Hamlet Isakhanli also got acquainted with the new office of EI-link.

# İQTİSADİYYAT VƏ BİZNES YÜKSƏK TƏHSİL FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ QOBUSTAN PALÇIQ VULKANINI ZİYARƏT EDİBLƏR



# STUDENTS OF GRADUATE SCHOOL OF ECONOMICS AND BUSINESS VISIT GOBUSTAN MUD VOLCANO

Aprelin 10-da Xəzər Universiteti, İqtisadiyyat və Biznes Yüksək Təhsil fakültəsinin Turizm və Otelçilik ixtisası üzrə MBA tələbələri müəllim Polad Orucovun rəhbərliyi ilə Qobustan palçıq vulkanlarını ziyarət etdilər.

Turizmin iqtisadiyyatı fənni üzrə ərazidə tikintisi davam edən Palçıq Vulkanları Turizm Kompleksinin ətraf ərazilərə potensial multiplikator effektini təhlil etmək məqsədi daşıyan çöl tədqiqatı zamanı ərazidə yerləşən infrastruktur, palçıq vulkanları, habelə, Qobustan Milli Tarix-Bədii qoruğu haqqında tələbələrə məlumatlar verildi.

On April 10, Graduate School of Economics and Business of Khazar University organized an excursion for MBA students to the mud volcanoes in Gobustan led by lecturer Polad Orujov.

The students were informed about the infrastructure, mud volcanoes, as well as the Gobustan State Historical and Cultural Reserve during a field study, the purpose of which is to analyze the potential multiplier effect of the Mud Volcanoes tourist complex being built in the area.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI BRAQANÇA POLİTEXNİK İNSTİTUTUNDA



# KHAZAR UNIVERSITY STAFF AT POLYTECHNIC INSTITUTE OF BRAGANÇA

Martın 21-25-də İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əlimərdanova Erasmus+ Beynəlxalq Kredit Mobilliyi (ICM) proqramı çərçivəsində Portuqaliyanın Braqança Politexnik İnstitutunda (IPB) səfərdə olublar.

Səfər zamanı Xəzər Universitetinin əməkdaşları institutun doktorant tələbələri və professor-müəllim heyətinin elmi tədqiqatlarını və təcrübələrini həyata keçirdikləri İPB mərkəzləri ilə yaxından tanış olublar. Eyni zamanda, idarəetmə və mühəndislik ilə bağlı təhsil proqramları və beynəlxalq fəaliyyətlərə cavabdeh olan IPB rəhbərliyi ilə səmərəli görüşlər keçirilmişdir. Görüş zamanı Xəzər Universiteti və Braqança Politexnik İnstitutunun ikili diplom proqramlarında iştirak edən Xəzər Universitetinin bakalavr və magistr tələbələrinin akademik göstəriciləri xüsusi vurğulanmış və gələcək əməkdaşlıq strategiyası olaraq tərəflər birgə təlim layihələrinin və Maliyyə, Mühasibat uçotu, Turizm və otelçilik, İnşaat Mühəndisliyi, Mexanika mühəndsiliyi və Baytarlıq təbabəti üzrə ikili diplom proqramlarının hazırlanmasında maraqlı olduqlarını bildirmişlər.

On March 21-25, Dean of School of Economics and Management, Dr. Jeyhun Mammadov and Dean of School of Science and Engineering, Dr. Fakhranda Alimardanova visited the Polytechnic Institute of Bragança (IPB) in Portugal within the framework of the Erasmus+ International Credit Mobility (ICM) program.

During the visit, Khazar University representatives were introduced to IPB facilities in which scientific research and experiments are performed by Ph.D. students and faculty members. Meanwhile, fruitful meetings were held with the administration of the IPB, being in charge of management and engineering related study programs and international activities. The academic performance of Khazar University bachelor and master students participating in dual degree programs of Khazar University and Polytechnic Institute of Bragança was particularly emphasized and, as a strategy for further collaboration, the parties expressed their keen interest in developing joint training projects and dual-degree programs in Finance, Accounting, Tourism and Hotel Management, Civil Engineering, Mechanical Engineering, and Veterinary Medicine.

## TƏHSİL DEPARTAMENTİNİN DOKTORANTI BEYNƏLXALQ KONFRANSDA

## DOCTORAL STUDENT OF EDUCATION DEPARTMENT AT INTERNATIONAL CONFERENCE

Aprelin 2-3-də keçirilmiş beynəlxalq konfransda Təhsil departamentinin doktorantı Abdul-Rahman Balogun Muhammed-Shittu öz araşdırmasını təqdim edib. "Dinc etiraz necə şiddətə çevrildi: müsəlman araşdırmaçıların və qərb ideologiyasının rolu" adlı təqdimatında Abdul-Rahman Balogun Nigeriyada yaşayan müsəlman araşdırmaçılara qarşı olan təqiblər və buna qarşı təşkil olunan dinc hərəkatın necə şiddətli toqquşmalara çevrildiyi haqqında məlumat verib. Çıxışının sonunda sualları cavablandıran Abdul-Rahman Balogun`un bu araşdırma haqqında olan məqaləsi konfransın yekun protokolunda çap olunub.

Hibrid formada təşkil olunan "3-cü Beynəlxalq Fənlərarası Şiddət Konfransı" Türkiyə, Rusiya, Hindistan və digər ölkələrdən olan araşdırmaçıları bir araya gətirib.

On April 2-3, Abdul-Rahman Balogun Muhammed-Shittu, the doctoral student at the Department of Education, presented his research work at an international conference. In his presentation, "How Peaceful Protest Turned into Violence: The Role of Muslim Researchers and Western Ideology," Abdul-Rahman Balogh spoke about the persecution of Muslim researchers in Nigeria and how the peaceful movement against it turned into violent clashes. Abdul-Rahman Balogu answered questions at the end of his speech. His article on this study was published in the final minutes of the conference.

The "3rd International Interdisciplinary Violence Conference", held in a hybrid format, brought together researchers from Turkey, Russia, India and other countries.

## TURİN POLİTEXNİK UNİVERSİTETİNİN PROFESSORU MƏLUMAT SESSİYASI KEÇİRDİ

## PROFESSOR OF POLYTECHNIC UNIVERSITY OF TURIN HELD AN INFORMATION SESSION





Aprelin 4-də Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsinin təşəbbüsü ilə İtaliyanın Turin Politexnik Universitetinin professoru Fulvia Chiampo tərəfindən məlumat sessiyası keçirildi. Tədbir çərçivəsində tələbələr professor tərəfindən hazırlanmış təqdimatı dinlədilər və universitet ilə bağlı suallarını bildirdilər.

Qeyd etmək istərdik ki, professor Fulvia Chiampo Xəzər Universitetində Erasmus+ Mübadilə proqramı çərçivəsində iştirak edir.

On April 4, at the initiative of Khazar University's International Relations Department, an information session was held by Fulvia Chiampo, the professor at the Politecnico di Torino University in Italy. During the event, students listened to the presentation prepared by the professor and asked questions about the university.

Note that Professor Fulvia Chiampo is at Khazar University as part of the Erasmus+ Exchange Program.

# İTALİYA VƏ ABŞ UNİVERSİTETLƏRİNİN PROFESSORLARI İLƏ GÖRÜŞ

Aprelin 5-də Xəzər Universitetinin rəhbərliyi və əməkdaşlarının iştirakı ilə İtaliyanın Turin Politexnik Universitetinin professoru Fulvia Chiampo və ABŞ-ın Detroyt Mercy Universitetinin professoru Omid Sabbaghi ilə görüş keçirildi.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Tədris işləri üzrə prorektor, professor Məhəmməd Nuriyev, Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, dekanlar, departament müdirləri iştirak edirdilər.

Tanışlıq məqsədi daşıyan görüşdə müxtəlif mövzularda müzakirələr aparıldı.

Qeyd edək ki, professor Fulvia Chiampo Xəzər Universitetində Erasmus+ Mübadilə proqramı və professor Omid Sabbaghi isə Fullbright proqramı çərçivəsində iştirak edirlər.

Görüşün sonunda proqram çərçivəsində iştirak edən professor heyətinə hədiyyə və sertifikat təqdim olundu.



# MEETING WITH PROFESSORS FROM ITALIAN AND US UNIVERSITIES



On April 5, a meeting was held with Fulvia Chiampo, Professor at the Polytechnic University of Turin, Italy, and Omid Sabbaghi, Professor at the University of Detroit Mercy, USA, with the participation of Khazar University administration and staff.

The meeting was attended by Khazar University Founder, Chairman of the Board of Directors and Trustees, Professor Academician Hamlet Isakhanli, University Rector Associate Professor Irada Khalilova, Vice Rector for Academic Affairs, Professor Mahammad Nuriyev, Vice Rector for International Relations Vlad Vernygora, Development Center Director Raziya Isayeva, Public Relations and Media Director Alovsat Amirbayli, deans, department heads.

Various issues were discussed at the meeting. It should be noted that Professor Fulvia Chiampo is participating in the Erasmus+ Exchange Program at Khazar University and Professor Omid Sabbaghi is participating in the Fullbright Program.

At the end of the meeting, the faculty members participating within the framework of the program were presented gifts and certificates.



# CREATİVE SPARK LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ "İDEYAN VARSA GƏL" ADLI MƏLUMATLANDIRICI GÖRÜŞ

# INFORMATIVE MEETING "IF YOU HAVE AN IDEA, COME ON" WITHIN CREATIVE SPARK PROJECT

Aprelin 6-da Xəzər Universiteti İnkişaf Mərkəzinin əməkdaşları ilə universitetin tələbələri arasında məlumatlandırıcı görüş keçirilib. Görüşdə tələbələrə Britaniya Konsulluğu tərəfindən maliyyələşən və Xəzər Universitetinin Middlesex Universiteti ilə birgə tərəfdaşı olduğu "Creative Spark" müəssisə layihəsi haqqında məlumat verilib.

İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva tələbələrə proqram çərçivəsində təşkil olunan müsabiqələrin şərtlərini izah edib. Sonra "Creative Spark" proqramının 2021-ci il üzrə ölkə çempionu olmuş Humanitar, təhsil və sosial elmlər fakültəsinin Kimya və biologiya ixtisasının sonuncu kurs tələbəsi Təravət Əsgərzadə öz layihəsi haqqında danışıb.

Görüşün sonunda tələbələr öz ideyaları ilə bağlı rəyləri dinləyiblər.

On April 6, an informative meeting was held between Khazar University Development Center staff members and university students.

During the meeting, the students were informed about the Creative Spark enterprise project funded by the British Council and to which Khazar University is a partner together with Middlesex University.

Director of the Development Center Raziya Isayeva explained to the students the terms of the competitions organized within the program. Then, Taravat Asgarzadeh, the final year student of the Faculty of Humanities, Education and Social Sciences, majoring in Chemistry and Biology, who became the national champion of the Creative Spark program in 2021, spoke about his project.

At the end of the meeting, students listened to opinions on their ideas.





# ERASMUS+ MEDIATS LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏDBİR

# EVENT WITHIN THE ERASMUS+ MEDIATS PROJECT

Aprelin 6-da Erasmus+ MEDIATS layihəsi çərçivəsində tərəfdaşların iştirakı ilə virtual görüş keçirildi.Görüşdə gündəlikdə duran məsələlər müzakirə edildi. Yay məktəbinin necə keçirilməsi və detalları haqqında təkliflər irəli sürüldü.

Sonra layihənin tərəfdaşlarından olan Gəncə Dövlət Universiteti layihə çərçivəsində keçiriləcək konfrans haqqında iştirakçıları məlumatlandırdı.

Görüşdə Xəzər Universitetini İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov və İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quliyeva təmsil etmişlər.

On April 6, a virtual meeting was held with the participation of partners within the Erasmus+ MEDIATS project. The issues on the agenda were discussed at the meeting. Suggestions were made on how to hold the summer school and its details.

Then, Ganja State University, one of the partners of the project, informed the participants about the conference to be held within the project.

Khazar University was represented at the meeting by Jeyhun Mammadov, Dean of the School of Economics and Management, and Sabina Guliyeva, Project Manager of the Development Center.

# ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ "LİDERLİYİN ƏSASLARI" ADLI TƏLİM

Co-funded by the Erasmus+ Programme of the European Union

# TRAINING ON "FUNDAMENTALS OF LEADERSHIP" WITHIN ECAR PROJECT

Aprelin 8-də Xəzər Universitetinin tərəfdaş olduğu "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) Erasmus+ layihəsi çərçivəsində Azərbaycan Universitetində "Liderliyin əsasları" adlı təlim keçirilmişdir.

Təlim "Fərdi performansın komponentləri", "Korporativ performansın komponentləri", "Motivasiya", "Maslow teoriyası", "Herzberg teoriyası", "Situativ liderlik modeli", "Feedback verilməsi qaydaları", "DİSC davranış modeli" mövzularını əhatə edib. Təlimi Azərbaycan HR İnstitutunun əməkdaşı Vüqar Cəfərov aparıb.

Günün sonunda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

Təlimdə Xəzər Universitetini Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova təmsil etmişdir.

On April 8, a training entitled "Fundamentals of Leadership" was held at Azerbaijan University as part of the "Establishing a Rectors' Conference in Azerbaijan" (ECAR) Erasmus+ project in partnership with Khazar University. The training covered the following topics: "Components of individual performance", "Components of corporate performance", "Motivation", "Maslow's theory", "Herzberg's theory", "Situational leadership model", "Feedback rules", "DISC behavior model". The training was conducted by VugarJafarov, the staff member of Azerbaijan Institute of Human Resources.

At the end of the day, the participants were awarded certificates.

Khazar University was represented at the training by Fakhranda Alimardanova, Dean of School of Science and Engineering.

# "XƏZƏR"İN TƏLƏBƏSİ RAMAL QULUZADƏNİN LİLLE SƏFƏRİ İLƏ BAĞLI TƏƏSSÜRATLARI



**Müsahibəçi:** Salam, Ramal. Universitetin Tələbə Məclisinin prezidenti, Humanitar, təhsil və sosial elmlər fakültəsinin Regionşünaslıq ixtisasının tələbəsi kimi işləriniz necədir?

**Müsahib:** Salam, çox sağ olun. Qaydasındadır.

**Müsahibəçi:** Bu yaxınlarda Xəzər Universitetinin bir qrup əməkdaşı ilə birlikdə Lille şəhərində səfərdə idiniz. İstəyərdik ki, sizinlə bu haqda danışaq. Necə keçdi səfər? Fransa xoşunuza gəldimi?

**Müsahib:** Bəli. Çox bəyəndim (gülür).

**Müsahibəçi:** Lille universiteti, ordakı təhsil sistemi ilə bağlı təəssüratlarınızı bizimlə bölüşə bilərsizmi?

**Müsahib:** Əlbəttə. Lille universitetinin ucu - bucağı olmayan kampusunda diqqəti cəlb edən cəhətlər çox oldu. Tələbələrin əylənərək öyrənmələri üçün çox rahat şərait yaradılıb. Məsələn, bir mərkəzləri var idi, orada tələbələr simulyasiya oyunları keçirirdilər. Biz də onlara qoşulduq. Oyunun sonunda başa düşdüm ki, çox öyrədici idi.

**Müsahibəçi:** Nə gözəl! Başqa nələr öyrəndiniz? Məlumat verə bilərsinizmi?

**Müsahib:** Lille universitetinin professorları tərəfindən verilən təlimlərə qoşulduq. Ömür boyu öyrənmə, tələbələrin biznes fəaliyyətinin inkişafı üçün olan imkanlar, innovatik pedaqogika ilə bağlı yeniliklər... Mən ən çox ömür boyu öyrənmə mərkəzinin fəaliyyətini bəyəndim. Öyrənmək istəyən insanlara universitet tam dəstək verir. Bu çox əladır. İstəyərdim bizim universitetlərimizdə də belə mərkəzlər yaradılsın.

**Müsahibəçi:** Tələbə Məclisinin prezidenti olaraq hansı nəticələri çıxardınız bu təlimlərdən?

**Müsahib:** Orada olarkən Karyera Mərkəzinin koordinatoru Elnurə xanımla birlikdə innovativ karyera inkişaf planı hazırladıq. Hal-hazırda da bu planın üzərində işləyirik. Məncə, həyata keçirə bilsək, tələbələr üçün növbəti illərdə yaxşı imkanlar yarana bilər.

Mən Xəzər Universiteti İnkişaf Ofisinə tələbələrə belə fürsətlər yaratdıqları üçün təşəkkür edirəm. Fərqli təhsil sistemini gördükdən sonra biz tələbələrin də öyrənməyə olan baxışı dəyişir. Ümid edirəm, biz öyrəndiyimiz təcrübələri burada tətbiq edə biləcəyik.

**Müsahibəçi:** Çox sağ olun, Ramal. Təşəkkür edirik müsahibə üçün.

**Müsahib:** Sağ olun. Mən də sizə təşükkür edirəm.

*Müsahibəçi*: **Məhin Cəbrayılova**

## “XƏZƏR”İN PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU BAKI MEDİA MƏRKƏZİNİN HAZIRLADIĞI VERİLİŞDƏ

## COORDINATOR OF KHAZAR UNIVERSITY'S DEPARTMENT OF PSYCHOLOGY IN A PROGRAM PREPARED BY THE BAKU MEDIA CENTER

2022-ci il aprelin 4-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin rəhbəri Mələk Kərimova Bakı Media Mərkəzinin direktoru Aysu İbrahimlinin təşəbbüsü ilə hazırlanan silsilə verilişlərin birinin qonağı oldu.

Verilişdə “Mükəmməliyyətçilik” anlayışı ətrafında müzakirələr aparıldı. Mükəmməliyyətçilik xüsusiyyətinin insana nə zaman zərərli, nə zaman faydalı ola biləcəyi ilə əlaqədar məsələlər müzakirə mövzusu oldu. Ailələrin bu mövzuda uşaqlara olan təzyiqlərinin gələcəkdə ola biləcək fəsadları üzərində dayanıldı və tövsiyələr verildi.

On April 4, 2022, Malak Karimova, Coordinator of the Psychology Department at Khazar University and Head of the Khazar Psychological Service Center, was a guest on a series of programs initiated by Aysu Ibrahimli, Director of the Baku Media Center.

The program discussed the concept of “perfectionism”. Issues related to when the nature of perfectionism can be harmful and beneficial to human beings were discussed. The future consequences of the pressure of families on children in this regard were discussed and recommendations were given.

*https://www.youtube.com/watch?v=9Sl_-iALT_g*
*https://www.youtube.com/watch?v=ui2E25YP8IE*

## *AZEDU*: “KÖHNƏDƏN QALAN LAZIMSIZ İXTİSASLAR UNİVERSİTETLƏRDƏN YIĞIŞDIRILMALIDIRMI?”

## *AZEDU*: “SHOULD THE OLD UNNECESSARY SPECIALTIES BE REMOVED FROM UNIVERSITIES?”

*Azedu* təhsil portalı hazırda təhsil ictimaiyyətində müzakirə olunan bu məsələ ilə bağlı 2022-ci il aprelin 5-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının fikrini öyrənmək istəyib.

H. İsaxanlı sorğunu cavablandırıb: “Yəqin ki, bəzi ixtisasların adları, mənası köhnəlib. Yeni çox sayda ixtisaslar var. Səhv etmirəmsə, Təhsil Nazirliyi dünyada aktual olan, tələbatın çox olduğu, ancaq bizdə olmayan ixtisaslarla bağlı müəyyən işlərin görülməsi istiqamətində məsələ qaldırmışdı. Bu da təbii bir prosesdir. Yəqin hər sahə üzrə mütəxəssislər bu mövzu ilə bağlı öz təkliflərini verəcəklər”.

On April 5, 2022, the *Azedu* Education Portal asked Professor Academic Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, for his views on this issue, which is currently being discussed in the educational community.

H. Isakhanli answered the inquiry: “Probably, the names and meanings of some specialties are outdated. If I am not mistaken, the Ministry of Education has raised the issue of doing some work on specialties that are relevant in the world, in great demand, but we do not have. This is a natural process. Probably, experts in each field will give their suggestions on this topic.”

*https://azedu.az/az/news/54301-kohneden-qalan-lazimsiz-ixtisaslar-universitetlerden-yigisdirilmalidir-rektora-destek*

## XƏZƏR PSİXOLOJİ XİDMƏT MƏRKƏZİNİN RƏHBƏRİ *İCTİMAİ TV*-NİN "SABAHA SAXLAMAYAQ" VERİLİŞİNDƏ

## HEAD OF KHAZAR UNIVERSITY PSYCHOLOGICAL SERVICE CENTER ON *ICTIMAI TV*'S "NOT LEAVE IT UNTIL TOMORROW" PROGRAM

2022-ci il aprelin 7-də Xəzər Universiteti Psixologiya Departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin rəhbəri Mələk Kərimova *İctimai* Televiziyanın "Sabaha saxlamayaq" verilişinin qonağı oldu.

Verilişdə "Boşanmadan sonraki münasibət: münaqişənin səbəbi nədir?" mövzusu ilə bağlı ətraflı müzakirələr aparıldı. Psixoloq Mələk Kərimova boşanmadan sonraki mərhələdə uşaqlarla münasibətin düzgün qurulmasının əhəmiyyətini vurğulayaraq,, xüsusilə boşanmadan sonra tərəflərin bir-birinə zərər verməsinin qəbul edilməzliyi mövzusuna diqqət çəkdi. Son zamanlar boşanmadan sonraki mərhələdə cinayət hadisələrinin baş verməsinin qarşısının alınmasının da zəruri olduğunu və bunun yolunun isə, kiçik yaşlardan etibarən insanlararası münasibətdə problem həll etmə bacarıqlarının formalaşdırılması ilə əlaqəli olduğunu qeyd etdi.

On April 7, 2022, Malak Karimova, Coordinator of the Psychology Department at Khazar University and Head of the Khazar Psychological Service Center, was a guest on the *ICTIMAI TV* (*Public Television's*) "Not Leave it until Tomorrow" program.

The program discussed in detail the topic "Post-divorce relations: what is the cause of the conflict?" Psychologist Malak Karimova stressed the importance of establishing a proper relationship with children in the post-divorce period and she drew special attention to the fact that it is unacceptable for the parties to harm each other after a divorce. She also noted the need to prevent crime in the post-divorce period, and that the way to do this is to develop problem-solving skills in human relations from an early age.

*https://youtu.be/w-wwnbl15lw*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ *AZTV*-NİN "ƏSAS MƏSƏLƏ" PROQRAMINDA

## HEAD OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT IN AZTV'S "MAIN ISSUE" PROGRAM

2022-ci il aprelin 7-də Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu *AZTV*-nin "Əsas Məsələ" proqamının qonağı olmuş, Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə baş tutan görüşünün nəticələrini şərh etmişdir.

Telman Nüsrətoğlu çıxışında xüsusilə Ermənistanın təcrid vəziyyətindən xilas olması, bütün istiqamətlərdəki tənəzzülü dayandıra bilməsi, Cənubi Qafqazda sülh və təhlükəsizliyin dayanıqlı hala gətirilməsi üçün ölkələrin ərazi bütövlüklərinə qarşılıqlı hörmət prinsipləri əsasında Azərbaycanla sülh sazişi imzalanmasının önəminə diqqət çəkmişdir.

On April 7, 2022, the head of the Department of History and Archeology, Associate Professor Telman Nusratoglu was a guest of *AZTV*'s "Main Issue" program and commented on the results of the meeting of the leaders of Azerbaijan and Armenia in Brussels.

In his speech, Telman Nusratoglu stressed the importance of signing a peace agreement of Armenia with Azerbaijan on the basis of mutual respect for the territorial integrity of the countries in order to get rid of its isolation, stop the decline in all directions, and stabilize peace and security in the South Caucasus.

*https://youtu.be/eFSBPRFuaLU*




# "XƏZƏR"İN ƏMƏKDAŞLARI "GƏLƏCƏK ÜÇÜN BACARIQLAR: GƏLƏCƏK ÜÇÜN BİRGƏ" HESABAT TƏDBİRİNDƏ

# STAFF OF KHAZAR UNIVERSITY AT "SKILLS FOR THE FUTURE: TOGETHER FOR THE FUTURE" REPORT EVENT

Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzinin 2021-ci ilin aprel ayından həyata keçirilən "Gələcək üçün bacarıqlar: Gələcək üçün birgə" layihəsinin hesabat tədbiri olub.

Tədbirdə təhsil naziri Emin Əmrullayev, Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, ölkə universitetlərinin rektorları, o cümlədən, layihəyə qoşularaq Anlaşma Memorandumu imzalamış Xəzər Universitetinin rektoru İradə Xəlilova və əməkdaşları iştirak ediblər.

Tədbirdə "Gələcək üçün bacarıqlar" layihəsi, mentorluq və "Tusi - 2 C" inkubasiya proqramları barədə hesabat təqdim olunub. Təhsildə innovasiya fəaliyyətinin təşkili, tələbələrin və müəllimlərin bilik və bacarıqlarının artırılması və s. istiqamətlərdə fikirlər səsləndirilib, layihə çərçivəsində həyata keçirilmiş və yeni başlayacaq işlər barədə məlumat verilib, müzakirələr aparılıb.

Sonra səmərəli fəaliyyəti ilə fərqlənən və mentorluq proqramını uğurla başa çatdıran müəllimlərə, əməkdaşlara sertifikatlar təqdim olunub.

*AZƏRTAC* və digər saytlar tədbir haqqında xəbər yayımlayıb.

On April 14, the Innovation Center of the State Agency for Public Services and Social Innovations under the President of the Republic of Azerbaijan held a report of the project entitled "Skills for the Future: Together for the Future" held in 2021,April.

The event was attended by Minister of Education Emin Amrullayev, Chairman of the State Agency Ulvi Mehdiyev, rectors of the country's universities, as well as Irada Khalilova, Rector of Khazar University who joined the project and signed a Memorandum of Understanding, and staff members.

A report on "Skills for the Future project", mentoring and "Tusi-2C" incubation programs was presented at the event. Opinions were expressed on the organization of innovative activities in education, increasing the knowledge and skills of students and teachers, et c., information was provided on the work carried out within the project and work to be done, and discussions were held.

Then, certificates were awarded to teachers and employees who were distinguished by their effective work and successfully completed the mentoring program.

*AZERTAC* and other sites published news about the event.

*https://azertag.az/xeber/_quotGelecek_uchun_bacariqlar_Gelecek_uchun_birge_quot_hesabat_tedbiri_teskil_olunub-2094302*



## "AIESEC AZƏRBAYCAN" XƏZƏR UNİVERSİTETİNDƏ İNFOSESSİYA KEÇİRDİ

## "AIESEC AZERBAIJAN" HELD AN INFO SESSION AT KHAZAR UNIVERSITY

Aprelin 15-də Karyera İnkişaf Mərkəzi və "AIESEC Azərbaycan" beynəlxalq staj keçmə proqramı tərəfindən xaricdə könüllülük və ödənişli təcrübə proqramları barədə məlumat vermək üçün tələbələrlə görüş keçirildi. "AIESEC Azərbaycan"ın marketinq menecerləri Nuray Əhmədli və Ümid Hüseynli çıxış edərək, təşkilat haqqında, eləcə də yerli və könüllülük proqramları, xaricdə təcrübə proqramları və həmin proqramlara müraciət ilə bağlı tələbələrə məlumat verdilər.

Sonra təşkilatın Local Komitə üzrə Marketinq direktoru Nicat Tahirli sual-cavab sessiyası keçirərək, tələbələri maraqlandıran sualları cavablandırdı. Görüşün sonunda təşkilatın nümayəndələri tələbələrə təşkilata üzv olmaq və təcrübə proqramlarına müraciət üçün kömək etdilər.

On April 15, the Career Development Center and AIESEC Azerbaijan International Internship Program held a meeting with students to provide information about volunteer and paid internship programs abroad. "AIESEC Azerbaijan" Marketing Managers Nuray Ahmadli and Umid Huseynli spoke to the students about the organization, as well as local and volunteer programs, internship programs abroad and how to apply to those programs.

Then Nijat Tahirli, Marketing Director of the organization's Local Committee, held a question-and-answer session and answered the students' questions. At the end of the meeting, representatives of the organization helped students to become members of the organization and apply for internship programs.









# “MƏN GÖZƏL BİR SÜFRƏ AÇDIM SÖZDƏN ƏHLİ-ALƏMƏ”

*Tədbir haqqında müəllif yazısını təqdim edirik.*

*Gəlin, ey əhli-həqiqət, çıxalım aləmdən,*
*Qeyri yerlər gəzəlim, özgə səfalər görəlim.*
**Məhəmməd Füzuli**

Bu mübarək Ramazan ayının mənəvi nemətlərlə bərəkətli günlərində, cümə günü – aprelin 15-də dəvət olunduğum tədbirdə iştirak etmək üçün gözəl bir ünvana – Xəzər Universitetinə üz tutdum. Xəzər Universitetinin təşkil etdiyi bir çox konfrans və toplantılarda, elmi-ədəbi tədbirlərdə iştirak etsəm də, o günkü dəvətdə başqa bir həyəcan vardı... İki Mövlananın – Mövlana Cəlaləddin Rumi və Mövlana Məhəmməd Füzulinin mənəvi cazibəsi çəkirdi məni ahənrüba kimi... Və bir də “Mövlana” şeir məclisini təşkil edən əziz bir insana – mənə təsəvvüf böyüklərini, Mövlana Cəlaləddin Rumini, Hz. Rəbiyyəni, Şeyx Fəridəddin Əttarı sevdirən füzulişünas alim, təsəvvüf ədəbiyyatının gözəl tədqiqatçısı Nəzakət xanıma xüsusi hörmət və sevgim...

Xəzər Universitetinin nəzdində yaradılmış Mövlana Ədəbi, Fəlsəfi Araşdırmalar İnstitutunun direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət Məmmədlinin dəvətilə iştirak etdiyim bu tədbirin qonağı gənc şair-publisist, tədqiqatçı, AYB Gənclər Şurasının sədri Fərid Hüseyn idi. Bir neçə il öncə də bu istedadlı gənc şairlə görüşdə iştirak etmişdim. AYB mətbuat katibi, İLESAM-ın Azərbaycan təmsilçisi Xəyal Rzanın həyata keçirdiyi “Günlərdən şeir” adlı gözəl və unudulmaz layihənin qonağıydı o vaxt. Bu dəfəki görüşdə də başqa bir ab-hava, ayrı bir gözəllik vardı... Sanki iki Mövlana yüzillərin o tayından sirli pıçıltılarla “Gəl!” , “Gəlin!”– deyə çağırırdı; “Gəl, gəl, yenə gəl, kim olursan, ol, yenə gəl!”- deyə bütün insanlığa səslənən Mövlana Məhəmməd Cəlaləddin və “Gəlin, ey əhli-həqiqət, çıxalım aləmdən!”- deyə həqiqət əhlini bu aləmin fövqünə, “özgə səfalar” görməyə çağıran Mövlana Məhəmməd Füzuli. İkisinin də adı Məhəmməddi. İkisi də Məhəmməd peyğəmbər (s.a.s.) aşiqi! Birincisi, “Mən Hz. Məhəmmədin (s.a.s.) ayağının tozuyam”, ikincisi “Ya Həbibullah! Ya xeyrül-bəşər! Müştaqinəm... – deyən iki böyük iman sahibi, İlahi eşq təşnəsi!

Mövlana Cəlaləddin Ruminin adını daşıyan Mövlana Ədəbi, Fəlsəfi Araşdırmalar İnstitutunda yeni fəaliyyətə başlayan “Mövlana” şeir məclisinin Məhəmməd Füzuliyə həsr edilmiş ilk yığıncağında şeirin sultanının ziyarətindən yeni qayıtmış Fərid Hüseynin təəssüratlarını dinləmək, Füzuli yaradıcılığına onun yeni baxış prizmasından baxmaq olduqca maraqlı idi. Martın 20-də dünyanın bir çox ölkəsindən gələn şairlər, yazıçılar, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi IX Beynəlxalq Babil Mədəniyyət və İncəsənət Festivalında ölkəmizi təmsil edən Fərid qardaşımız səfər zamanı Kərbəlada mübarək məqbərəni – Seyyidül-

şühədə Hz.İmam Hüseyni (ə) və "Qoyum bir sayə düşsün qəbrimə ol sərvi-qamətdən"- deyə İmamın (ə) məzarının kölgəsində dəfn olunmağı vəsiyyət edən Əhli-beyt aşiqi Füzulinin məzarını ziyarət edib. Yazdığı "Füzulinamə" əsəri üçün halallıq alıb dahi şairdən. - Nə gözəl!

*Gəlmə qəbrim üzrə, ey eşq içrə məntək olmayan,*
*Tənə daşidir sənə, səngi-məzarımdan saqın! -*

Füzulinin "Gəlmə!"- dediklərindən deyil, dəvət etdiklərindən olduğunçün xoşbəxtsən! Allah ziyarətini qəbul eləsin, şair qardaşım!

Tələbə və müəllimlər, eləcə də Füzuli sözünün işığına yığışan şeirsevənlərin sayı artdıqca MƏFAM-ın Konya ətirli əsrarəngiz otağına sığışmadıq. Universitetin böyük zalında keçirilən yığıncaqda Fərid Hüseynin Məhəmməd Füzulinin yaradıcılığı, xüsusilə "Leyli və Məcnun" əsəri barədə yeni baxış tərzilə zəngin fikirlərini maraqla dinlədik. Sonra Fərid bəy verilən sualları cavablandırdı. Və nəhayət, gənc şair yeni yazdığı şeirlərindən oxudu. Tədbirin sonunda xatirə şəkilləri çəkildi. Gələcək tədbirlərdə, şeir məclislərində yenidən görüşmək arzusuyla ayrıldıq o əsrarəngiz məkandan... İftar vaxtına az qalırdı. Ruhumuz isə dahi şairin söz süfrəsindən öz payını götürmüşdü. Əlhəmdülillah!

**P.S.** Bu yazını Fərid Hüseynin sosial şəbəkə səhifəsində yenicə paylaşdığı "Kərbəla gündəliyi" şeirinin son misraları ilə tamamlamaq istədim:

*Mədinə ən gözəl qürbət,*
*Kufə ən sərt xəbərdarlıq,*
*Kərbəlasa qaçılmaz aqibət şəhəridir.*
*Bu şəhərləri görmədən də*
*o yerlərin ruhi sakinləriyik,*
*Canımız arzularımızın Vətənidir -*
*niyyətlərimizin mənziliyik.*

**Şəlalə Ana Hümmətli,**
*şair-publisist, filologiya üzrə fəlsəfə doktoru, dosent*

*https://turkustan.az/news.php?id=16951*

# AN EVENT DEDICATED TO FIZULI AT MEVLANA LITERATURE AND PHILOSOPHY RESEARCH INSTITUTE

Mevlana Literature and Philosophy Research Institute at Khazar University organizes research, conferences, and literary and artistic meetings on Azerbaijan and the Oriental world in general. The next such meeting took place on April 15, 2022 in the Marble Hall of the University.

The guest of the event, the chairman of the Youth Council of the Writers' Union of Azerbaijan, poet-publicist, researcher Farid Huseyn, expressed his unique views and comments on the work of Mohammad Fuzuli, in particular, "Leyli and Majnun". At the same time, the director of the Institute, Doctor of Philosophy in Philology, Associate Professor Nazakat Mammadli spoke about the geniuses of Mohammad Fuzuli and Mevlana Rumi and recited their poems. At the end of the event, Farid Hussein recited his new poem and answered questions.



# "XƏZƏR"DƏ JUBİLEY TƏDBİRİ

# JUBILEE EVENT AT KHAZAR UNIVERSITY

Aprelin 15-də Xəzər Universitetində Tarix və arxeologiya departamentinin müəllimi, universitetin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının redaksiya heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru, dosent Roza xanım Arazovanın anadan olmasının 75 illiyi münasibətilə tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, dekanlar, departament müdirləri və mərkəz rəhbərləri iştirak edirdilər.

Rektor İradə Xəlilova çıxışında qeyd etdi ki, Roza xanım Arazova universitet yarandığı ildən fəaliyyətə başlamış, uzun illər Tarix və arxeologiya departamentinin rəhbəri olmuş və hazırda da müəllim kimi işini davam etdirir. O, bu illər ərzində bilik və bacarığını, pedaqoji məharətini yüksək ixtisaslı kadrların hazırlanmasına sərf etmiş və bu gün də bu sahədə qüvvəsini əsirgəmir. Rektor yubilyara gül dəstəsi və hədiyyə təqdim etdi, ona cansağlığı, uzun ömür, işində uğurlar arzuladı. Digər çıxış edənlər də yubilyar haqqında ürək sözlərini söylədilər.

Həmin gün Roza xanım Arazovanın yubileyi Tarix və arxeologiya departamentində də departament müdiri Telman Nüsrətoğlu, əməkdaş və müəllimlərin iştirakı ilə qeyd olundu.

On April 15, Khazar University hosted an event to mark the 75th anniversary of the birth of Associate Professor Roza Arazova, Doctor of Philosophy in History, the lecturer in the Department of History and Archeology, the member of the editorial board of the university's "Azerbaijan Archeology" magazine. The event was attended by university administration, deans, heads of departments and heads of centers.

Rector Irada Khalilova noted in her speech that Roza Arazova has been working since the establishment of the university, was the head of the Department of History and Archeology for many years and still continues to work as a teacher. Over the years, she has devoted his knowledge, pedagogical skills to the training of highly qualified personnel, and today she does not spare her efforts in this area. The rector presented a bouquet of flowers and a gift to Roza Arazova and wished her good health, long life and success in her work. Other speakers also expressed their heartfelt words about her. On the same day, Roza Arazova's anniversary was celebrated at the Department of History and Archeology with the participation of the head of the department Telman Nusratoglu, staff members and teachers.

# XƏZƏR UNİVERSİTETİ İLƏ *FLAME BUSINESS SERVICES MMC* ARASINDA ƏMƏKDAŞLIQ MEMORANDUMU İMZALANMIŞDIR

# MEMORANDUM OF COOPERATION SIGNED BETWEEN KHAZAR UNIVERSITY AND *FLAME BUSINESS SERVICES LLC*

Aprelin 18-də Xəzər Universiteti ilə *Flame Business Services MMC* arasında əməkdaşlıq ilə bağlı memorandum imzalanmışdır. Bu məqsədlə Flame Business Services MMC-nin icraçı direktoru Tural Bağırov Xəzər Universitetində rektor İradə Xəlilova ilə görüşmüşdür.

Görüşdə İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova və Karyera Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə iştirak etmişlər.

Görüş zamanı üniversitet və şirkət arasında əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

On April 18, Khazar University and *Flame Business Services LLC* signed a memorandum of cooperation. For this purpose, Tural Bagirov, Executive Director of Flame Business Services LLC, met with Rector Irada Khalilova at Khazar University.

The meeting was attended by Dean of the School of Economics and Management Jeyhun Mammadov, Dean of the School of Science and Engineering Fakhranda Alimardanova and Coordinator of Career Center Elnura Ahmadzade.

Prospects for cooperation between the university and the company were discussed during the meeting.





# GƏNCƏ LÖVHƏLƏRİ VƏ ƏSGƏRLİK

**Hamlet İsaxanlı**

Bu yaxınlarda (2022-ci il fevral ayının 26-da) yaşadığım yerdə deyil, başqa yerdə olduğu üçün uzun müddət görmədiyim, təmasda olmadığım, unutduğum köhnə kağızlarıma baxmaq fikrinə düşdüm. Mənə yazılan və mənim yazdığım bəzi məktublara rast gəldim, onları maraqla oxudum, oxuduqca ötən günlərin nisgili məni kövrəltdi, köksümü ötürdüm, xəyallara daldım. Kağızlarım arasında "Kirovabad lövhələri və əsgərlik həyatı" adı verdiyim 3 əlyazma dəftər gördüm. 1969-cu ilin yayında o zaman Kirovabad adı daşıyan Gəncə şəhərində iki aylıq hərbi təlimdə olmuşam. Universitetdə hərbi dərs keçirdik və 4-cü tədris ilini tamamlayanda qayda üzrə xüsusi hərbi təlim keçib, sonda imtahan verib kiçik leytenant hərbi rütbəsi almaq nəzərdə tutulurdu. Bu hərbi təlimi Gəncə şəhərində keçdik. O günlərə aid bəzi epizodlar yadımda qalmışdı. Lakin, həmin günlər gündəlik yazdığımı, baş verənləri yazılı qeyd və şərh etdiyimi unutmuşdum. Bu saralmış, köhnəlib əldən düşmüş, vərəqləri incəlib-üzülmüş və qopmaqda olan dəftərləri ehtiyatla vərəqlədim, böyük maraq və həyəcanla oxumağa başladım.

Böyük həyat təcrübəsi olmayan 21 yaşlı o riyaziyyatçı tələbə gəncin heç bir xüsusi məqsəd güdmədiyi sadə qələm təcrübəsinin məndə, o gəncin bugünkü davamçısı və artıq xeyli həyat təcrübəsinə malik olan şəxsdə xüsusi maraq doğurması təbiidir; o qələmin söylədikləri həyatımın kiçik də olsa, olduqca şəxsi və eyni zamanda ictimai bir qismini təsvir edir. O gəncin kövrək həyat fəlsəfəsini onun yaşadığı dövrü, yetişdiyi mühiti və əlbəttə onun yaşını nəzərdə tutmaqla duymaq, anlamaq lazımdır.

Kiril əlifbasında yazılmış bu mətni olduğu kimi latın əsaslı əlifbaya çevirmək qərarına gəldim. "Gəncə lövhələri"ni, o dövrü anlamaq baxımından müəyyən maraq doğuracağı fikri ilə, oxuculara təqdim etmək istədim. Əhəmiyyətli sənəd xarakteri daşımadığı üçün kirildə yazılmış əlyazmanı ayrıca dərc etməyə ehtiyac duymadım. Maraq üçün hərdən orijinal mətndən kiçik haşiyələr verməklə kifayətləndim.

Gəncədə əsgərlik həyatı yaşamış və bu barədə yazmış o gəncin özünə inamını və özünü tənqidini, sevgi, sevinc və kədərini, qətiyyətini və eyni zamanda şübhələrini ifadə edən, bir qismi indi sadəlövh görünə bilən fikirlərini olduğu kimi, yazıldığı kimi saxladım – o gənci və o dövrü daha yaxşı tanımaq naminə. Bu xatirələri qələmə alan gənc ağlına gətirməzdi ki, onlar nə vaxtsa dərc oluna bilər. O, özü üçün yazmışdı – sadə dildə, birnəfəsə, yazdığı bir sözü və ifadəni belə düzəltməyə, dəyişdirməyə cəhd etmədən.

Mətndə tez-tez, birdən-birə rus dilinə keçmələr baş verir və rusca ifadələrə rast gəlinir. Onlar, görünür ki, hərbi terminləri, şeirləri, məktubları və elmi anlayışları tərcümə etməmək üçün

işlədilmiş və ya sadəcə, gəncin rus dili öyrənmək, rus dilində də yazmaq istəyindən doğmuşdur. Bu hissələri, müəyyən istisnalarla, Azərbaycan türkcəsinə çevirdim. Mətndə indi xatırlamadığım və ya yaxşı anlaya bilmədiyim bəzi işarə və jarqonlara rast gəlinir (zarafat deyil, 52 il yarımdan artıq vaxt keçib!). Orijinal mətnlə cüzi fərqləri ayrıca yazdığım qeydlərdə göstərməyə çalışacam. Bu qeydlər, ümid edirəm ki, həm də mətnin tam anlaşılmasına kömək edəcək.

**(1-ci dəftər)**




Həyat çox qəribədir... İnsan sabah başına nə gələcəyini görə bilmir, amma, o, nəinki təkcə sabahı düşünür, o hətta lap uzaqları, illərlə sonranı xəyal edir, gələcək haqqında xəyallara dalır, xəyallar arzulara dönür, arzular qanad açır, onu gələcəyə aparır.




İnsan arzusunun həddi-hüdudu yoxdur. Qadir olmadığın şeylər haqqında xəyala dalmaq nə deməkdir? Bəlkə bu, insanın gerçək həyatdan aralanmaq istəyi ilə əlaqəlidir? Bu, insanın zəifliyidirmi? Bu romantikadır. Romantika gözəl deyilmi? Ya bəlkə romantikasız həyat, yəni, gerçək həyat daha xoşdur və ya gözəldir və ya lazımlıdır, faydalıdır?

Yəqin ki, dünyada yalnız gerçək həyatı düşünən, hər addımda yalnız fayda axtaran insanlar az deyil. Qoy onlar necə istəyirlər elə yaşasınlar. Ümumiyyətlə, hər kəsin öz yolu var, hərə öz yolunu seçir, buna azadlıq deyilir. Bəs mən? Xəyal dünyası mənim gerçək dünyamla yanaşıdır; romantika mənim həyatımın canıdır, qanıdır. Romantika həyatımın bəzəyi, özəyi, gözəlliyidir.




İnsan həyatını uzun bir yola bənzətmək olar və ya "insan yaşadıqca uzun bir yol qət edir" demək mümkündür. Uzun deyəndə asta-asta addımlayan insanın illərlə qət etdiyi, yorulduğu, sevinc və kədər dolu həyat yolunu nəzərdə tuturam. Hər an dəyişən, anlaşılmaz cürbəcürlüyə malik bu yol gah enir, gah qalxır, gah daralır, çığır olur, gah enlənir, geniş prospektə çevrilir. Qət edilən

bu yol həm gəl-gəl deyir, çağırır, həm də çaşdırır, gah torpaqlı, palçıqlı, daş-kəsəkli, qarlı-buzlu, sürüşkəndir, gah da hamar, asfalt döşənmiş yoldur. Bu yolda uzağı görmək olmur, onun saysız eniş-yoxuşu, döngələri var.

Zəif, iradəsiz yolçu çətin (daş-kəsəkli, qarlı-buzlu, eniş-yoxuşlu) yola düşəndə tez yorulur, əldən düşür, özünü pis hiss edir. Mətin, iradəli yolçu isə ağır, narahat yolda da özünü itirmir, inamla, çətinlikləri dəf edə-edə yoluna davam edir, məqsədinə çatmaq üçün hər əziyyətə qatlaşır. Məqsədinə çatmaq arzusu möhkəm olduqca, bu arzunu xəyalda yaşatdıqca onun dizlərinə qüvvət, gözlərinə işıq gəlir.


Мәгсәдинә чатмаг арзу
су мөһкәм олдугча, бу арзуну хәјалда јаша
дыгча онун дизләринә гүввәт, көзләринә иш...
кәлир.

Xəyal insanın ən ali keyfiyyətidir. S. Vurğun gözəl demişdir: "Xəyal şirin nemətidir bu acı kainatın".


Хәјал инсанын ән али кејфијјәтидир.

Budur, mən Gəncə şəhərindəyəm. Bura dincəlmək, istirahət etmək üçün gəlməmişəm. Biz, Azərbaycan Dövlət Universitetinin 4-cü il tələbələri (ya 5-ci il?!) burada hərbi xidmətdəyik. Kursantların, gələcək ehtiyatda olan zabitlərin, fərqli yaşda və fərqli xarakterə malik insanların iki aylıq toplanışındayıq. Bizim balaca - Hamlet də onların arasındadır! Yazıq Hamlet!


Среди них и
наш малыш – Гамлет! Јазыг Һамлет!

**Qeyd.** Sonuncu abzas (sətirbaşı) rusca yazılmışdır ("Yazıq Hamlet" istisna olmaqla).

**Qeyd.** Gələcəyə can atan gənc mötərizədə yazdığı "ya 5-ci il?!" ifadəsi ilə 4-cü tədris ilinin tamamlandığına, qarşıda tezliklə sonuncu 5-ci ilin başlanacağına işarə vurur.

***

30 iyun. Artıq imtahanlar geridə qalmışdır. Ancaq qarşıda yenə də istirahətsiz günlər durur. Axşam İlyas, Fəxrəddin və Nailə məni Gəncəyə yola saldılar. Nailənin qayğıkeşliyi məni çox mütəəssir etdi. Vağzalda Göyüş müəllimlə rastlaşdıq. Qatarın yola düşməsilə bərabər mənim kefim də harayasa yola düşdü və xəyallar, xəyallar...


N. ин гајғыкешлији
мәни чох мүтәәссир етди.


Гатарын јола дүшмәсилә бәра-
бәр мәним кефим дә һарајаса јола дүшдү
вә хәјаллар... хәјаллар...

**Qeyd.** İlyas Qardabani`dən gəlmiş tələbə yoldaşım idi, Nailə yaşayan həyətdə İlyas və mən

mənzil kirayələmişdik. Fəxrəddin əmioğlumdur, coğrafiyaçı-torpaqşünas alim Göyüş müəllim isə nənəm Zeynəbin qardaşı oğlu idi.

Səhər (1 iyul) Gəncəyə çatdıq. Bizi hamama apardılar və oradan çıxanda hərbi paltar geyindirdilər. Adama bir təhər görünür, qəribə gəlir – hamı bir formadadır – inkubatordan çıxmış cücələr kimi. Başımızın qırxılması, saçımızın yoxa çıxması isə başqa bir aləm oldu. Güzgüyə baxıram və gözümə inanmıram. Saç necə də gözəl şeymiş... Görəsən, saçımı bir də nə vaxt daraya biləcəm? Sentyabra kimi bir az saç əmələ gəlsəydi...


Күзкүјә бахырам вә көзүмә инанмырам. Сач нечә дә көзәл шеј-миш...

Əgər qızlar öz saçlarını oğlanlar qədər sevsəydilər qiyamət olardı. Heyif ki, qızlar hələ bu "inkişaf dərəcəsi"nə çatmamışlar.

Sonra bizi kazarmaya gətirdilər. Axşam yeməyi, kazarmada ilk yemək. Bəh-bəh! Yeməyə nə demək?! Ət nə ət, heç bir şey – saman. Əgər həmişə belə yemək versələr, yeməyimiz belə olsa, belə ağır çəkmələri (sapoqları) sürüyə bilmək müşkül olacaq.


Әт, нә әт! Һеч бир шеј, саман...

Artıq bir neçə gündür ki, kazarmadayıq. Yemək bir balaca düzəlib, ancaq çox az... Ən yaxşısı budur ki, səhər və axşam yeməkləri zamanı çay da verirlər. Deməli, yaşayırıq. Heyif ki, mürəbbəli çay vermirlər.

**Qeyd.** Orijinalda yarı rusca – "Deməli, живем" yazılıb.


Ән јахшысы будур ки, сәһәр вә ахшам јемәкләри заманы чај да верирләр. Демәли, живем!. Һејиф ки, мүрәббәли чај вермирләр.

Sıra təlimi ən çətin hərbi fənndir. Sadə sıra fəndləri: "sağa dön", "sola dön", "geriyə dön", "farağat", "düzlən" və s. canımızı boğazımıza yığıblar. Digər fənlər əsasən əvvəl bildiklərimizdir: taktika, partiya-siyasət işi,..., yeni heç nə vermirlər. Necə deyərlər: "köhnə hamam, köhnə tas".

**Qeyd.** Bu sonuncu abzas (sətirbaşı) "canımızı boğazımıza yığıblar" və "köhnə hamam, köhnə tas" ifadələri istisna olmaqla orijinalda rusca yazılıb.


ничего нового не дают. Как говорят: көһнә һамам, көһнә тас".

***

Nailəyə hirslənmişəm. Əslində, çox nahaq yerə acığım tutub, amma acıq məndən asılı deyil ki. Nə üçün o mənə "ayın 5-nə kimi məktub yazma" dedi? Çünki ayın 5-nə kimi Bakıda olacaq, sonra Qubaya gedəcək və onda Bakıdakı ünvana yazdığım məktubu almaz, çünki məktub Nailə Qubaya gedəndən sonra çata bilər. Bəs o, nə üçün ayın 5-nə kimi Bakıda olacaq? Necə yəni "nə üçün?", işi var ona görə.


Неҹә
ҝәрә нә үчүн, иши вар, она көрә.

Düzü, məni də qınamaq olmur, çox darıxıram, birdən-birə şəraitin belə dəyişməsi adama çox təsir edir.


бирдән-бирә шәраитин белә
дәјишмәси адама чох тә'сир едир.

Rotamızın komandiri ermənidir – kapitan Xaçaturyan (Tanyanın "qohumu"), rotanın starşinası (yüzbaşı?) isə gürcüdür – kiçik serjant Kakuberiya. Məncə, rota komandiri yaxşı adamdır, elə starşina da pis deyil.

**Qeyd.** Bu sonuncu abzas (sətirbaşı) orijinalda rusca yazılıb.

**Qeyd.** Tanyanın "qohumu" ifadəsi nə deməkdir? Bakıda yaşadığım həyətdə Tanya adlı qız vardı (Nailənin rəfiqəsi), şən qız idi, onunla zarafat edərdik. Tanyanın atası və ya atalığı, deyəsən, erməni idi. Bəlkə zarafatla bunu nəzərdə tutmuşdum?!


Командир роты у нас армянин –
капитан Хачатурян („родственник" Тани),
а старшина роты грузин – мл. сержант
Какуберия.

Atam məni görmək, halımı bilmək üçün Gəncəyə gəldi. O, özü üçillik maraqlı əsgərlik həyatı keçirmişdi. Atam kapitanla tanış oldu, bir yerdə olmaq üçün axşam saat 7-yə kimi mənə icazə aldı. Musa əmimgilə getdik.

**Qeyd.** Atamın əmiuşaqlarından biri – Musa Bayramov uzun müddət Gəncədə yaşamış, Daşkəsəndə mühasib vəzifəsində çalışmışdı. Onun böyük oğlu Mustafa mənim yaşıdım idi, Mustafa və onun kiçik qardaşı Ənvərlə tay-tuş kimi tanış və dost idik. Digər iki qardaş – Qurban və Faiq daha kiçik idilər.

Əsgər paltarımı dəyişmək lazım gəldi. Mustafa Gürcüstana getmişdi, Musa əminin paltarlarından seçməli olduq. Geyindim və... gülünc görkəm aldım, ot biçən ermənilərə (dağ adamlarına) oxşayırdım. Axşam atam kapitanla görüşüb və onunla, mənim xəbərim olmadan, əsgərliyimin bir hissəsini evdə keçirmə imkanı barədə söhbət edibmiş, məlum olub ki, bu çox çətin məsələdir. Mən artıq əsgərlik həyatına öyrəşmişəm, əsgərliyin bəzi cəhətləri xoşuma gəlməyə başlayıb. Beləliklə, tamamilə burada qalası oldum, əsgərliyim davam etdi.

***

İyulun 4-də, axşam Nailəyə məktub yazdım – ayın 5-ni gözləmədim. Qəribədir, adam məktub yazmaq üçün darıxarmış. Lakin, məktubu yazıb göndərdikdən sonra başa düşdüm ki, məktub yazmaq üçün deyil, məktub almaq üçün darıxıram. Gözüm yoldadır, kiminsə gəlməsini deyil, məktubun intizarını çəkirəm. İndi tam mənasilə başa düşdüm ki, insan darıxan zaman, kefi pis olan zaman aldığı məktub necə də sevindirici olurmuş...


Инди там мә'насилә баша дүшдүм ки, инсан дарыхан заман, кефи пис олан заман алдығы мәктуб нечә дә севиндиричи олурмуш.

İyulun 6-da bizi bir günlüyə azad etdilər, öz başımıza buraxdılar və biz bütün günü şəhərdə gəzdik. Belə günlər olmasa, halımız necə olardı? Allah bilir. Bu gün foto şəkil çəkdirdim.

**Qeyd.** Bu sonuncu abzas (sətirbaşı) orijinalda rusca yazılıb.

İyulun 8-də Fəxrəddinə məktub yazmışam, hesablamalarıma görə 13 və ya 14-də Nailədən, 16-da Fəxrəddindən cavab məktubu almalıyam. Hesabım düz çıxmasa, deməli yaxşı hesabdar deyiləm...
Boş vaxtlarımı М.А. Евграфов–"Аналитические функции" və Наймарк–"Дифференциальные операторы" kitablarını, əlimə keçən bədii əsərləri, "Ulduz" jurnallarını və təzə qəzetləri oxumaqla, eləcə də futbol oynamaqla keçirirəm. Əsgərlik həyatı haqqında fikrimi yavaş-yavaş dəyişdirirəm. Əvvəllər zəhləmi tökən qanun-qayda indi xoşuma gəlir. Axşam saat 10-da yatıb səhər saat 6-da durmaq (normal yuxu və tez qalxmaq), keyfiyyətsiz də olsa, ciddi rejimlə, vaxtlı-vaxtında yemək pis iş deyil. Hərçənd ki, axşam yatmaq vaxtını pozmaq da xoşumuza gəlir. İnsan qəribə məxluqdur... Hiss edirəm ki, əsgərlik həyatının mənə çox xeyri dəyəcək, məsələn, həmişə tez yatıb tez durmağa çalışacam; bu, mənim çatışmayan cəhətlərimdəndir.

**Qeyd.** Təəssüf ki, bu ümidim özünü doğrultmadı. Gecələr oxuyub-yazmaq və yatağa çox gec getmək adətim ömrüm boyu davam etdi.


Әввәллар зәһләми төкән ганун-гайда инди хошума кәлир. Ахшам

Məncə, əsgərlik həyatının ən böyük xeyri insanları, oturub-durduğum adamları yaxşı tanımağım oldu: adi həyatda, məsələn, ali məktəbdə görə bilmədiyim cəhətləri burada müşahidə etdim. İnsanların iç üzü üzə çıxdı. Gözümdə alçalanlar, gözümdə yüksəyə qalxanlar oldu. Necə də acgöz insanlar varmış; çörəyin üstünə cumur, daha tez və daha çox pay almağa çalışır, dava salır, pis sözlər işlədir, nə bilim nə oyun açırlar. İ.İ. necə də murdar adammış, özü də Qubalı (hayıf), eləcə də S. və s.

***

Məktub alma vaxtı gəlib çatdı, amma cavab almamışam. Çox qəribədir. Bəlkə də qəribə - zad deyil, əksinə, çox təbiidir. Nailə haqqında çox fikirləşirəm, ciddi fikirləşməyə dəyər. Onsuz da, özümdən asılı olmadan, bütün fikrim Nailəyə həsr olunub. Yenə də onu əməlli öyrəndiyimə şübhə edirəm. Ya bəlkə bu sözləri söyləməklə haqsızlıq etmiş oluram? Bəlkə də...
Onu tanıdığım ilk gündən xarakterizə etməyə çalışacam, bəlkə bu mənə kömək edə.
İlk dəfə onu gördükdə, düzü, çox diqqətlə baxa bilməmişdim, utanmışdım, gözaltı baxmışdım, mənə xoş təsir bağışlamışdı. Ancaq ikinci dəfə görəndə mənə çox cazibəli göründü. Sadəliyi, zərif hərəkətləri, nüfuzedici baxışı, yüngül yerişi diqqətimi cəlb etmiş, ürəyimə yatmışdı. Onunla maraqlanmağa başladım. Onunla yaxınlaşdıqca, söhbət etdikcə, onu daha yaxından tanıdıqca marağım böyüdü, məndə maraqdan fərqli nəsə yeni bir hissin əmələ gəldiyini gördüm. Bu hiss get-gedə gücləndi, get-gedə məni qoynuna aldı, həyəcana saldı.
Hər şeyi araşdırmaq adətim var, bunu məni yaxşı tanıyan dostlarım bilirlər. Diqqətimi çəkən hər şeyin mənasını başa düşməyə, iç üzünü görməyə, hiss etməyə çalışıram, güclü və zəif tərəflərini, xoşuma gələni qeyd edir, iradımı bildirirəm (çox zaman içimdə, öz-özümə). Ancaq Nailəni görəndə



о мәни
тамамилә мәфтун етмишдир.

elə bil ki, dəyişdim, gözümə ondan başqa heç nə görünmürdü, o məni tamamilə məftun etmişdir.

O, çox açıq ürəklidir, həyatını, demək olar ki, tamamilə mənə söylədi. Ata-ana və qardaş-bacıları, orta məktəb illəri və musiqi təhsili barədə danışdı. Bir dəfə anasının bir rəfiqəsi öz oğlu ilə qonaq gəlib, sən demə Nailəni oğlu ilə tanış etmək və qohum olmaq istəyirmiş. Daha bir dəfə gəlib fikirlərini açanda, Nailə anasına istəmədiyini bildirib. Oğlan xor kapellasında oxuyurmuş. Nailə gülə-gülə anasının sözlərini yada salırdı: "atası kommunist, anası kommunist, özü kapella, necə olur bu?" Nailədən "oğlan niyə xoşuna gəlmədi?" deyə soruşmuşdum, cavabı: "bilmirəm, heç ürəyimə yatmadı, tərbiyəli, sakit, amma qız kimi idi, gələcəyimi onunla təsəvvür edə bilmədim".

Bəlkə mən həddindən artıq xəyala qapılıram? Ancaq mənə belə gəlir ki, onda da mənə qarşı məndəki kimi yeni hiss yaranmışdır. Bu hiss onda da məndəki kimi qüvvətlidirmi? Bunu bilmirəm. Məni həmişə düşündürən də, həmişə əzab verən də məhz bu sualdır. Onun mənə marağı nə dərəcədədir? Doğrudanmı onda mənə qarşı yaranan hiss saf və həqiqidir, bəlkə bu sadə xoş münasibət hissidir? Xasiyyətində bir cəhət məni təəccübləndirir və onu axıracan başa düşməyimə mane olur – o, özünü mənə sevdirmək üçün qızlara xas olan heç bir üsuldan istifadə etmir, söz və hərəkətləri sadədir. Belə olan halda o, bir gün məndən rahatca ayrıla bilməzmi?



Бу һисс онда да мәндәки кими
гүввәтлидирми? Буну билмирәм.

Onun mənə məktub yazmaması yeni, daha xoşagəlməz fikirlərin başıma cəmləşməsinə səbəb olur. Neyləyəsən?



Онун мәнә мәктуб јазмамасы јени, даһа
хошаҝәлмәз фикирләрин башыма ҹәмләшмә-
синә сәбәб олур. Нејләјәсән?

***

Nəhayət, çoxdan intizarla gözlədiyim məktub gəlib çıxdı (17.VII.69). Konvertin üstündə tanış xətti gördükdə məni xoş bir təsir bürüdü. Elə bil bədənimdən isti bir cərəyan keçdi. Mənim ağıllı və qəşəng Nailəm! Əlbəttə, çox adam inanmaz ki, mən bu iki vərəqəlik məktubu azı 13-14 dəfə oxudum. Ümumiyyətlə, sevincimin həddi-hüdudu yox idi. Ancaq əsasən rusca yazılmış bu məktubdakı bəzi sözlər mənə birtəhər görünürdü:

"İşim çox çətin idi, hər şeyi özüm etməyə məcbur idim, xörək hazırlayırdım və digər təsərrüfat işləri ilə məşğul olurdum və buna görə vaxtım qalmırdı".

**Qeyd**. Bu sözlər rusca yazılmışdı.



Әлбәттә, чох адам инанмаз ки, мән бу ики
вәрәгәлик мәктубу азы 13-14 дәфә охудум.
Үмумијјәтлә севинҹимин һәдди-һүдуду јох
иди.


„Мне было очень трудно, приходилось всё самой делать, готовила обед и занималась разными другими хозяйственными делами и поэтому не было времени".

Cavab məktubumda onun bu sözlərini "hə, bildim, çox vacib işlərə görə məktub yazmayıbsan" deyə zarafatla özünə yazdım.

Mənə vağzalda Göyüş müəllimlə rastlaşdığımızı, Göyüş müəllimin diqqətlə ona baxdığını yazmışdı. Görəsən, Göyüş müəllimin ona münasibəti necə olub, nə deyib, nə fikirləşib? Çox maraqlıdır. Heyif ki, İlyasın harada olduğunu bilmirəm, bilsəm məktub yazıb, əhvalatı öyrənərdim. Fəxrəddin haqqında yazdığı sözlər məni sevindirdi: "Fəxrəddin məni gözdən qoymurdu (molodets)". Sağ ol, əmioğlu!

İki-üç gün məktubun təsiri altında qaldım. Başımdakı xoşagəlməz şübhəli fikirlər isə yavaş-yavaş yox oldu.

**Qeyd.** Aşağıdakı hissəni rusca yazmışam. Şeir parçalarını olduğu kimi verirəm:
"Blok`un sözlərini təkrar etməyimizi istəməzdim:

*Была ты всех ярче, верней и прелестней,*
*Не кляни же меня, не кляни!*
*Мой поезд летит, как цыганская песня,*
*Как те невозвратные дни...*

*Что было любимо, - всё мимо, мимо...*
*Впереди – неизвестность пути...*
*Благословенно, неизгладимо,*
*Невозвратимо... прости!*

**Qoy Nailə bilsin ki:**
*"Пусть вокруг зима и ветер воет, -*
*Я с тобой!*
*Друг тебя от зимних бурь укроет*
*Всей душой!"*

**Qeyd.** Bu, bir daha qeyd edim ki, "Gəncə lövhələri"ndəndir, Nailəyə yazdığım məktubdan deyil.
**Qeyd.** Təəssüf ki, Gəncə dövründə mənim Nailəyə yazdığım, və Nailənin mənə yazdığı məktublar qalmayıb.


Пусть N. знает, что!
„Пусть вокруг зима и ветер воет, -
Я с тобой!
Друг тебя от зимних бурь укроет
Всей душой!"

Məni bir şey çox düşündürür. Azərbaycanlı olasan, ancaq Azərbaycan dilində məktub yazmağı bacarmayasan... Çox pis haldır. Mənim rus dilində məktub, xatirə və s. yazmağım başadüşüləndir, çünki mən bu şeyləri Azərbaycan dilində bacarıram və gələcək təhsilim naminə, ümumi savad naminə hərdənbir rus dilində yazmağım məqbuldur. Ancaq o, tərsinə... Eybi yoxdur, yəqin ki, ona az-çox təsir edə biləcəm. Bəlkə də o, heç fikir verməyib, mən hər vasitə ilə onda xalis azərbaycanlı ruhu yaratmaq və möhkəmlətmək üçün çalışmışam və mənə belə gəlir ki, "könlüm mənə deyir

**ki", az da olsa, təsir edə bilmişəm... Əlbəttə, onun düşdüyü mühiti nəzərə aldıqda ona bəraət qazandırmaq lazımdır, qınamaq olmaz.**


онда халис азәрбајҹанлы
руһу јаратмаг вә мөһкәмләтмәк үчүн
чалышмышам вә мәнә белә ҝәлир ки,

**Məktubdan daha bir parça: "Məgər mən sənə deməmişdimmi öz gözəl saçlarını mənim üçün saxla ki, mən onlardan şinyon düzəldim. Ay səni, yaxşı oğlan deyilsən! Mən öz saçlarımı hələ kəsməmişəm, sənin gəlişini gözləyirəm, sonra kəsəcəm. Yaxşı?"**

**Qeyd.** Bu sonuncu abzas (sətirbaşı) da məktubda rusca yazılıb.

**Qeyd.** Şinyon (fransızca: chignon) qadın saçlarının başın arxa tərəfində yığılmasıdır: bu, taxma saçlar vasitəsilə edilə bilər.


„Я тебе разве не говорила чтобы ты
свои прекрасные волосы сохранил для меня,
чтобы я сделала из них шиньон? Ах ты
не хороший мальчик! Свои волосы я ещё
не порезала, жду твоего приезда, а после
порежу. Хорошо?“

***

Kazarma həyatı çox darıxdırıcıdır. Təzə qəzetlər tapılmır. Maraqlı kitablar yoxdur, ən başlıcası isə radio yoxdur ki, musiqiyə qulaq asaq. Burada "Həyat, sən nə qəribəsən?" mahnısı dəbə düşüb, hamı əzbərləyib və demək olar ki, hamı oxuyur. Yaxşı mahnıdır:

*Nə yaxın qonşu olduq bu dünyada,*
*Ayrı-ayrı doğulduq bu dünyada,*
*Axır gəlib bir olduq bu dünyada,*
*Ey həyat, sən nə qəribəsən!*


Казарма һәјаты чох дарыхдырыҹыдыр.
Тәзә гәзетләр тапылмыр. Марагды китаблар
јохдур, ән башлыҹасы исә радио јохдур ки,
мусигијә гулаг асаг.

Ümumiyyətlə, musiqidən ecazkar qüvvə yoxdur. Musiqinin təsiri bu darıxdırıcı əsgərlik həyatında belə özünü göstərir. Hərbi marş çalınanda adamın ayaqları istər-istəməz yerə daha bərk toxunur, adam daha həvəslə addım atır.



Hərbi taktika dərslərində həmişə çölə gedirik. Zəhləmizi töküblər. Azı 100-200 dəfə aşağıdakıları təkrar etmişik:

Rota komandirindən əmr aldıqdan sonra vzvod komandirinin işi:
1) Məsələni aydınlaşdırmaq və vəziyyəti qiymətləndirmək;
2) Qərar qəbul etmək;
3) Döyüş əmri vermək;
Və s. və s.

**Qeyd.** "Rota" kəlməsi ilə başlayan bu cümlələr orijinalda rusca yazılmışdır.



Работа командира взвода после получения приказа от командира роты:
1) Уяснить задачу и оценить обстановку
2) Принять решения
3) Отдать боевой приказ.
в с. в с.

İyulun 18-də hamama aparmışdılar. Şəklimi aldım, bir təhər düşmüşəm, heç əsgərə oxşamır. Birini bu gün məktubla Nailəyə göndərdim, birini İsmixan, birini də Abbas Hüseynov aldı.

Hər şənbə və bazar günü bizi şəhərə buraxırlar. Vacib işimiz yoxdur. Gəzirik. Lenin meydanındakı park çox xoşuma gəlir. Nəhəng ağaclar... Sərin su... və şərq t. Yoldan keçənlər bizə baxır və deyirlər: Yazıq əsgərlər, heç olmasa burda iki-üç saat dincəlirlər. Trolleybusda bizim əvəzimizə bilet pulu ödəyirlər, biz ayran içəndə pul almaq istəmirlər. Yazıq əsgərlər! Yazıq əsgərlər!

**Qeyd.** Bu sonuncu abzas (sətirbaşı) orijinalda rusca yazılıb.

**Qeyd.** "şərq t." nə deməkdir? Dəqiq yadımda deyil. Hər halda "t" ilə başlayan xoş bir söz olsaydı, "təranə", "təravət" kimi, yəqin ki, onu tam yazardım. Bəlkə "şərq tualeti"?



Нечего делать. Гуляем.



Огромные деревья... Холодная вода... и восточный т.

Bəzi adamlar papiros çəkməsələr dura bilmirlər. Bəzi adamlar spirtli içki içməsələr dura bilmirlər. Mən isə... çay içməsəm, bir az çaysız qalsam o saat kefim pozulur, elə bil başım ağrıyır. Həm də mürəbbəli çay ləzzət verir. Heyif ki, əsgərlikdə mürəbbəli çay vermirlər, hər halda, Hamletin zövqünü nəzərə almaq lazım idi...

**Qeyd.** Cümlənin "hər halda" ilə başlayan son hissəsi rusca yazılıb.


Һејиф ки, эскэрликдэ мүрэббэли чај верирлэр, все-таки, надо было учитывать вкусы Гамлета.

Bura təzə gələndə qayda-qanuna yaxşı əməl edirdik. Vaxtında yatırdıq, kənara heç yana qaçmırdıq... İndi isə bunlardan əsər-əlamət qalmamışdır. Saat 10-da (axşam) "otboy" komandası verilən kimi sakitcə bayıra çıxırıq, kimisi çalır, kimisi mahnı oxuyur, kimisi oynayır, kimisi kitab oxuyur, bəziləri isə sakitcə oturub... xəyala dalırlar.

**Qeyd.** Mətndə "xəyala dalırlar" yerinə rusca "мечтают" yazılıb.

Mən axırıncı iki qrupa aidəm, bəzən mahnı da oxuyuram. Görəsən, nə üçün adamlar gecə daha yaxşı fikirləşir, romantikaya dalırlar? Gecələr mən müxtəlif mövzularda fikirləşir, hətta roman, povest yazmaq fikrinə düşürəm. Mənə elə gəlir ki, gələcəkdə... bəh-bəh!!!

***


Көрэсэн нэ үчүн адамлар кечэ даһа јахшы фикирлэшир, романтикаја далырлар!

**23 iyul.** Gecə saat 10:30-da, hamı yatandan sonra mən, Elmxan və Abbas Əzimov sakitcə hasardan tullanıb şəhərə çıxdıq. Patrullardan qorxa-qorxa, evlərin arası ilə restorana doğru getməyə başladıq. Ancaq yaxınlaşıb restoranda zabitləri gördüyümüz üçün ora gedə bilmədik. (Sonra məlum oldu ki, onlar əslində bizim zabitlərdən deyil, milisionerlərdənmişlər).

**Qeyd.** Görünür ki, bu "milisionerlərdənmişlər" sözünün uzunluğu məni "ilhamlandırmış" və həmən ayrıca bir sətirdə "mükafatlandırdıqlarınızdandırlarmı?" yazıb, o sözdəki hecalarının sayını müəyyən etmişəm: 13.


Мүкафатландырдыгларынызданды рлармы?
1 2 3 4 5 6 7 8 9 10 11 12 13.

İki nəfər oğlana pul verdik və onlar bizə limonad alıb gətirdilər. Sərin limonadları içib, geri yola düzəldik. Əsas maraqlı işlər bu yolda baş verdi. Evlərin arası ilə yavaş-yavaş qayıdırdıq. Birdən yanında çox zabitlər olan bir "villis" maşına rast gəldik və... götürüldük. Üzümüzü kazarmaya doğru tutub, sürətlə qaçmağa başladıq. Qabaqda Abbas, onun gerisində Elmxan və Abbasın sağ tərəfində mən yarışa çıxmış sprinterlər kimi qaçırdıq (Abbas və Elmxan bir zolaqda, mən o biri, yanaşı zolaqda). Birdən qarşımıza məftil çıxdı və Abbasın boğazı məftilə keçdi. Abbasın sürətli qaçışı qarşısında məftil dözmədi, qırıldı (səhər baxanda gördük ki, Abbasın boğazında qırmızı zolaq qalıb). Mən özümü itirmədim və məftilə keçməmək üçün bir an sağa burulmağa macal tapdım, lakin bir yanı məftil – tor (setka) olan bir yerə düşdüm. Yenə cəld geriyə dönüb əvvəlki yola düzələ bildim. Kazarma yaxınlığındakı yolun bir tərəfindən o biri tərəfinə doğru qaçarkən, Elmxan kəlləsi üstə yerə yıxıldı, ancaq əlindəki limonadı buraxmadı. Sonra yavaş-yavaş kazarmaya qayıtdıq və saat 12:30-da yerimizə, çarpayımıza uzandıq.


Сэһэр баханда көрдүк ки, Аббасын боғазында гырмызы золаг галыб-


Елм-
хан хәлләси үстә јерә јыхылды, анҹаг...
әлиндәки лимонады бурахмады.

***

24 iyul. Axşamüstü saat 6 idi. Oturub televiziyada futbola baxırdıq. Mənə dedilər ki, kimsə gəlib səni çağırır, geri döndüm və Mustafanı gördüm (əmioğlu). İçəri kazarmaya keçə bilmişdi. Kapitandan saat 10-a kimi icazə alıb, Mustafagilə getdik. Evdə yenə televiziyaya baxdıq, söhbət etdik və 8-9 stəkan... mürəbbəli çay içdim. Ləzzət!!!


8-9 стәкан... мүрәббәли
чај ичдим. Ләззәт!!!

Həftənin 6-cı günü, iyulun 26-da bir günlük icazə (məzuniyyət) aldım və Mustafagilə getdim.

**Qeyd.** Mətndə rusca "суточное увольнение" yazılıb.

Evə yaxılaşanda gülüş səsi eşitdim. Kimi görsəm yaxşıdır? Fəxrəddin 2-3 yoldaşı ilə bərabər qabağıma qaçdılar. Sən demə, Fəxrəddin qatar ilə Bakıdan gəlib kəndə gedərkən, yolüstü Gəncədə düşüb. Xeyli söhbət etdik, adətimiz üzrə zarafatlaşdıq. Axşam Fəxrəddini yola saldıq və gecəni Mustafagildə şən keçirdik. Bazar günü Mustafa və Ənvər işə getmədilər (ailədəki vəziyyət onlardan hər gün işləmək tələb edirdi...). Xeyli nərd oynadıq. Şəhəri gəzməyə çıxdıq. Mən əvvəlcə Mustafanın paltarlarından istifadə etdim, sonra Gəncəyə gələndə tanışlara verdiyim paltarlarımı alıb geyindim. Bazar günü axşam saat 9-da kazarmaya qayıtdım.

28 iyun. Nazimlə birlikdə gecə hasardan tullanıb şəhərə qaçdıq. Restoranda Nazim "pivələdi", mən çay içdim. Sonra küçə boyu mahnı oxuya-oxuya aşağı-yuxarı gəzdik. Gecə saat 12-də mahnı oxumağın öz ləzzəti var...

**Qeyd.** 1-ci dəftər burda bitir.

(2-ci dəftər)


Кировабад ләвһәләри
вә
әскәрлик һәјаты
②
ТЕТРАДЬ

Arada maraqlı bir əhvalat oldu. Axşamüstü yeməyə getmişdik. Uşaqlar bir kağız gətirib mənə verdilər ki, səni girişdə gözləyirlər. Kağıza Elmxan və mənim adım yazılmışdı. Hər ikimiz cəld qapıya doğru getdik. Orada tanış adam görmədik. Ancaq qapı ağzında iki kişi durub bizə baxırdı. O kişilərdən biri ilə (onu şərti olaraq İ adlandıraq) mənim aramda komediyasayağı bir dialoq oldu:

–Hamlet: Bağışlayın, sizdən başqa burda kimsə varmı?

–İ: Xeyr, yoxdur. Siz Hamlet deyilsiniz ki?

–Hamlet (təəccüblə): Bəli, Hamletəm, ancaq yəqin ki, sizə başqa Hamlet lazımdır, mən sizi tanımıram.


Һамлет (тәәҹҹүблә) - Бәли, Һамлетәм, анҹаг јә-
гин ки, сизә башга Һамлет лазымдыр,
мән сизи танымырам.

–İ: Siz İsayev Hamlet Abdulla oğlu deyilsinizmi?

–Hamlet (çox təəccüblə və çaşqın halda): Bəli...

–İ: Onda gəlin tanış olaq.

–Onlar tanış olurlar. Məlum olur ki, İ dediyimiz adamın adı İsmayıldır.

–İsmayıl: Mən sizin qohumunuzam.

–Hamlet: Qohumumuz? Bəlkə səhv edirsiniz? Axı siz heç mənə tanış gəlmirsiniz.


Һамлет - Гоһумумуз? Бәлкә сәһв едирси-
низ? Ахы сиз һеч мәнә таныш кәл-
мирсиниз.

–İsmayıl: Mən sizin təzə qohumlarınızdanam.

–Hamlet: Təzə? Düzü başa düşmürəm.

–İsmayıl: Mən Vaqifin nişanlandığı qızın əmisiyəm.

Yalnız bundan sonra hər şey mənə aydın oldu. Axı Vaqif (xalam oğlu) bu yaxınlarda gəncəli bir qızla nişanlandı. Deməli, İsmayıl dayı o qızın əmisidir. Sonrakı söhbətdən məlum oldu ki, İsmayıl dayı və daha bir neçə şəxs bizə gediblərmiş və orada atam paltarlarımdan bir dəstini onlarla göndərib ki, mənə çatdırsınlar.

***

29 iyun. Məmmədəli ilə birlikdə axşam saat 10-da hasardan düşüb qaçdıq, şəhərdə xeyli gəzdik. Geri qayıdanda məlum oldu ki, gecə saat 11:30-da podpolkovnik Yefremov hamının yerində olub-olmadığını yoxlamağa gəlib. Uşaqlar deyiblər ki, onlar hər ikisi gecə növbətçisidirlər. Bununla da Məmmədəlinin canı qurtarıb (mən doğrudan da növbətçi idim). 30 iyun yenidən gecə növbətçisi oldum, çünki Hüseynov Abbas xəstələndi və mən onun əvəzində durdum.

**Qeyd**. Mətndə növbətçi yerinə rusca "дневальное" termini yazılıb.

İradə insanın ən mühüm və ən səciyyəvi xüsusiyyətlərindən biridir. Güclü və ya zəif adam deyəndə, uyğun olaraq güclü iradəyə malik şəxs və ya zəif iradəli adam nəzərdə tutulur. İnsanın öz qarşısına qoyduğu məqsədə çatması üçün onun iradəli olması əsas və başlıca şərtdir. İnsan lazım olmayan, faydasız, hətta ona ziyan verən şeylərlə məşğul ola bilir. Bundan azad olmaq üçün o, güclü iradəyə malik olmalıdır. Xüsusilə məşğul olduğu zərərli şey şirnikdirici, xoşagələn olduqda düz yola qayıtmaq yolunda iradə çox böyük rol oynayır. Məsələn, bir adam möhkəm papiros çəkəndir

və bunun çox ziyanlı olduğunu başa düşür, amma papirosu tərgitməyi bacarmırsa, bu onun zəif iradəli adam olduğunu göstərir. Eyni sözləri spirtli içki və digər təhlükəli maddə düşkünləri üçün də demək olar.


бу онун
зəиф ирадəли адам олдуғуну көстəрир.

Həyat çox mürəkkəb və çətin olduğuna görə insanların böyük əksəriyyəti, yəqin ki, nə vaxtsa, zəiflik göstərib hansısa zərərli bir işə, bir oyuna baş qoşa bilir. İnsan həyatı heç də ancaq gözəlliklərdən ibarət olmur. İnsan həyatında iradənin zəif və ya möhkəm olduğu dövrlər bir-birini əvəz edə bilər. Yaxşı-pisi anlayıb pisi dəf etmək üçün tədbir görmək iradəli olmaq deməkdir. Özündə iradə yaratmaq özünütərbiyənin canıdır.

Atalar çox gözəl demişlər: "Yüz dəfə ölç, bir dəfə biç". Bu qısa kəlamda böyük həyat fəlsəfəsi ifadə olunmuşdur. Bu fəlsəfə hissiyyata qapılaraq hərəkət etmə deyir. Fikirləş – et, edib fikirləşmə! Hissiyyata tam tabe olub, ölçüb-biçmədən lazım olmayan bir iş görmək sonralar insana vicdan əzabı verə bilir. İradə insanın sonralar vicdan əzabı verə bilən cəzbedici, amma pis, zərərli vərdişlərlə mübarizəsi deməkdir.


Аталар чох көзəл демишлəр: „Јүз дəфə
өлч, бир дəфə бич".

Hamlet, sənin iradən qüvvətlidirmi? Yaxşı fikirləş. Həyatını kino lenti kimi gözlərin önündən keçir, böyük və gur həyatın olmasa da. Çatışmayan cəhətlərini düzəltməyə çalış. Çatışmayan cəhətləri azaltmağa, yox etməyə çalış, nə qədər çalışsan o qədər xeyri var, yolun o qədər uğurlu olar. Məncə hələlik mən o qədər də zəif iradəli deyiləm, dəmir iradəli olmasam da... İnsani münasibətlərdə özünə çox güvənib "mən bilirəm", "mən əminəm" demə, bu yolda mərc gəlib qalib gəlmək fikrindən çəkin, özünü göstərməyə can atma.


Һамлет, сəнин ирадəн гүввəтлидирми?
Јахшы фикирлəш.


Мəнҹə һəлəлик мəн о гəдəр дə зəиф ирадəли
дејилəм.

***

31 iyul. Atam gəldi. Mənə icazə aldıq və axşama kimi bir yerdə olduq. Gecə atam Gəncədə qaldı və ertəsi gün mənə dörd günlük məzuniyyət ala bildi. 1 avqust axşam saat 7-də Gürcüstana, kəndimizə yola düşdük. Qatar (elektriçka) və avtobusa çatmadığımız üçün evimizə qədər taksi ilə getdik.

Doğma ev. Nə qədər şirin xatirələrim bu evlə bağlıdır. Ali təhsil almaq məni evimizdən aralamış, uzaq salmışdır. İlin 10 ayını Bakıda, cəmi 2 ayını isə evdə olmaq insafdandırmı? Evə gələndə qonaq kimi qarşılanmaq özü bir dərddir. Əlimi bir şeyə vurmağa, bir iş görməyə qoymurlar, ye, yat, dincəl, gəz deyirlər...


Доғма ев. Нə гəдəр ширин хатирəлəрим бу евлə бағлыдыр.

Təbiətin çox qəribə qanunları var. Adam istədiyini, ürəyindən keçəni edə bilmir. Sənin çətinlik çəkdiyin, əldə edə bilmədiyin bir şey bu barədə dərindən düşünməyən birinin qarşısına çıxır, onun malı olur... B. Vahabzadə bu məsələyə toxunub:

*Ey ana təbiət, de neçün-niyə*
*Gülün budağında tikan bitirdin?*
*Bulağın gözünü qotur keçiyə*
*Bulanıq suyunu ceyrana verdin.*


Тəбиəтин чох гəрибə ганунлары вар.

Doğrudan da, cəmiyyətdə hər kəs özünə uyğun yer tutsaydı, özünə layiq bir yerdə olsaydı... Bu iş, yəqin ki, iradə, bəxt və ədalətə bağlıdır...

2 avqust. Atamla Rustavi şəhərinə getdik, "Volqa" maşınımızın bəzi yerlərini düzəltmək lazım imiş. Axşamüstü Alının yeni düzəldilmiş baş daşını görmək üçün qəbristanlığa getdik. Vəfasız dünya... Başım dumanlanır, gözüm yaşla dolur. Göz yaşı içdəki yanğının, hüznün üzə çıxmasıdır. Heç nə təsəlli verə bilmir. Öz-özümə fikirləşirəm: nə olaydı adam öz həyatından başqasına pay verə biləydi. Alını xilas etmək üçün hər şeyə gedərdim. Heyhat, bu mümkün deyil.


гəбристанлыға кетдик. Вəфасыз дүнја!... Башым думанланыр, көзүм јашла долур.

Gecə yuxumda gördüm ki, o dirilib, evə gəlib, hamı mat qalıb, mənim isə sevincdən gözlərimdən yaş axır və çığıra-çığıra deyirəm: gördünüzmü, mən sizə dedim ki, o ölməmişdir. Yuxudan qalxanda gördüm ki, doğrudan da ağlamışam, yasdığım yaş olub. O gecə dəli kimi olmuşdum, yata bilmirdim.

**Qeyd**. Alı mənim mamam (bibim) oğlu idi. Atası 1941-ci ildə savaşa getmiş və qayıtmamışdı. Onu və bacısı Mehribanı atam saxlamış, böyütmüşdü. Onları, uyğun olaraq, böyük qardaşım və böyük bacım sayırdım. Alı çox gənc yaşında xəstələnib vəfat etdi. Ona aid "Tez sönən şölə" adlı xatirə yazmışam.


О кечə дəли кими олмушдум. Јата билмирдим...

3 avqust. Səhər atamla Tbilisiyə getdik, bizimlə gedən qadınlar bazarda satışla məşğul oldular, mən isə şəhəri gəzdim. Bəxtiyara zəng etdik, ancaq cavab ala bilmədik.

4 avqust. Tbilisi-Akstafa, sonra isə Akstafa-Bakı qatarına minərək, axşam saat 10-da Gəncəyə çatdım. Kazarmada dost-yoldaşlar qarşıladı. Abbas Əzimovla bərabər Xaçaturyan üçün göndərilmiş meyvələri apardıq və sonra restorana getdik. Gecə kazarmaya qayıdanda Lenin otağında Elmxan, Hüseyn, Məmmədağa, Abbas və mən gətirdiyim yeməklərin üstünə cumduq.

***

Gecəyarı Elmxan "yoldaş Əsgərli"nin məktubunu mənə verdi. Hamı yatandan sonra məktubu ləzzətlə oxumağa başladım. Sağ ol, Nailə! Məktubun əsas hissəsini əməlli-başlı Azərbaycan dilində

yazmışdı.


Һамы јатандан сонра мәктубу ләззәтлә охумаға башладым. Сағ ол, N!

Budur bəzi parçalar:

“...Nə yaxşı olardı bir az, “bir damcı” yağış yağaydı, mən də dayanaydım həyətdə, əllərimi yuxarı qaldırıb yağışa sevinəydim. Görürsən, yavaş-yavaş yazıçı oluram. Deyəsən səndən keçir”.

“Bilirsən, bir neçə dəfə səni yuxuda görmüşəm, özü də ki, pis görmüşəm, yəqin hər şey yaxşı olacaq, axı yuxunu tərsinə başa düşmək lazımdır”.

“Mejdu proçim, şəkildə amerikanski soldatlara oxşayırsan. Özü də ki, əlində tutduğun jurnaldakı qıza çox baxma, yoxsa mən qısqanıram. Bildinmi?!”

“Gərək bir şəkil də papaqsız çəkdirəydin, axı mən sənə demişdim, bir sənin keçəl başına baxardım və saxlayardın na pamyat` ee o soldatskix qodax. Ex tı!”

“Sən məni bağışla, yəqin ki, Azərbaycan dilində yazanda çox səhv buraxıram. Nu niçeqo, pravda? Samoye qlavnoye ya znayu, çto tı menya ponimayeş`” və s. və s.

**Qeyd.** Göründüyü kimi məktubda bəzi rusca ifadələr işlədilmişdi. “Между прочим” (öz aramızdır), “На память ее о солдатских годах. Эх, ты!” (Əsgərlik illərində ondan xatirə kimi. Ay səni!), “Ничего, правда? Самое главное я знаю, что ты меня понимаешь” (Eybi yoxdur, elə deyilmi? Ən başlıcası mən bilirəm ki, sən məni başa düşürsən).


„...Нә јахшы оларды бир аз, „бир дамҹы" јағыш јағајды, мән дә дајанајдым һәјәтдә, әлләрими јухары галдырыб јағыша севинәјдим. Көрүрсән, јаваш-јаваш јазычы олурам. Дејәсән сәндән кечир."

„Билирсән бир нечә дәфә сәни јухуда көрмүшәм, өзү дә ки, пис көрмүшәм, јәгин һәр шеј јахшы олаҹаг, ахы јухуну тәрсинә баша дүшмәк лазымдыр."

„Между прочим шәкилдә американски солдатлара охшајырсан. Өзү дә ки, әлиндә тутдуғун журналдакы гыза чох бахма, јохса мән гысганырам. Билдинми!?"

„Кәрәк бир шәкил дә папагсыз чәкдирәјдин, ахы мән сәнә демишдим, бир сәнин кечәл башына бахардым вә сахлајардын на память ее о солдатских годах. Эх ты!"


„Сән мәни бағышла јә'ни ки, азәрбајҹан дилиндә јазанда чох сәһв бурахырам. Ну ничего правда? Самое главное я знаю что ты меня понимаешь." в с. в с.

Ümumiyyətlə, səmimi yazılmış bu məktub məni çox sevindirdi, mənə xüsusi zövq verdi. Elə bil əvvəlki məktubuna görə giley-güzarımı eşitmişdi. Mənim Nailəm!..

Etimad gözəl şeydir! Etimad göstərdiyin adam çox zaman etimadı doğrultmağa çalışar və sənə məhəbbəti, hörməti artar.


Е'тимад көзәл шејдир!

Ümumiyyətlə, etimad insan xarakterinin yaxşı keyfiyyətidir. Bu doğrudur, amma kimə, hansı işdə etimad – bunu bilmək lazımdır. Budur işin mahiyyəti!

**Qeyd.** Bu sonuncu abzas (sətirbaşı) orijinalda rusca yazılıb.

Öz-özümə fikirləşirəm və görürəm ki, mənim Nailəyə etimadım az olub. Hətta bunu onun üzünə qarşı neçə dəfə demişəm. Necə səhv etdiyimi indi başa düşürəm. Ancaq... O da bir qədər günahkardır. Mənim etimadsızlığım ona heç təsir etmirdi, hətta gülüb zarafata salırdı: "görürsənmi, deməli mənə inanmaq lazım deyil" və i. a. Bu isə mənim xoşuma gəlmir. Adamın özünü şübhəli aparması yaxşı deyil. Qarşılıqlı hörmət və məhəbbət olan şəxslər arasında şübhə olmamalıdır, daha doğrusu, şübhə üçün əsas olmamalıdır.

**Qeyd**. Adətən, qız özünü sevdirmək üçün oğlanın fikirlərini duymaq və onlara uyğunlaşmağa çalışır. Mən belə görmüş, eşitmiş və oxumuşdum. Bir qədər sonra anladım ki, Naildə xoşa gəlmək üçün xüsusi addımlar atmaq, özünü daha şirin göstərmək məharəti yoxdur, fəndgirlik ona yad idi. Nailə inanılmaz dərəcədə təbii idi, olduğu kimi görünürdü, göründüyü kimi vardı.


Мә'ним е'тимадсызлығым она һеч тә'сир етмирди, һәтта күлүб зарафата салырды: „Көрүрсәнми, демәли мәнә инанмаг лазым дејил. в и. а."

Doğruçuluq insanın ən gözəl sifətlərindən biridir. Yalanlardan uzaq dur! Hamlet, səninlə yoldaşların arasında, səninlə təmasda olduğun bütün adamlar arasında yalan olmasın.


Јаланлара далој!

Nailə ilə münasibətdə daha saf olmağa çalış. Bu səni başa düşməkdə ona kömək edər.

***

*(Ardı gələn nömrədə)*

(Ardı gələn nömrədə)

## "XƏZƏR XƏBƏR"İN ƏMƏKDAŞININ MƏQALƏSİ "*YENİ TƏFƏKKÜR*" QƏZETİNDƏ

"Yeni təfəkkür" qəzetinin 22 aprel 2022-ci il tarixli nömrəsində "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayevin "Doğma kitabla üz-üzə" adlı məqaləsi dərc olunmuşdur. Məqalə Əməkdar jurnalist İradə Əliyevanın "Bəşir bəy Aşurbəyov" adlı kitabı haqqındadır.

Məqalədə nüfuzlu neft sahibkarı, maarifçi, ictimai siyasi xadim, ötən əsrin 30-cu illərində sovet repressiyasının qurbanı olmuş Bəşir bəy Aşurbəyovun keşməkeşli həyatının müəllif tərəfindən tarixi faktlara istinadla və yüksək peşəkarlıqla qələmə alındığı nəzərə çatdırılır




## AN ARTICLE BY "KHAZAR KHABAR" EMPLOYEE IN "*YENI TAFAKKUR*" NEWSPAPER

An article by Alirza Balayev, Deputy Editor-in-Chief of "Khazar Khabar" magazine and Honored Journalist, entitled "Face to Face with a Native Book" was published in the April 22, 2022 issue of the "Yeni Təfəkkür" ("New thinking") newspaper. The article is about the book "Bashir bey Ashurbeyov" by honored journalist Irada Aliyeva.

The article notes that the author describes the life of Bashir Bey Ashurbeyov, an influential oil entrepreneur, educator, public and political figure, a victim of Soviet repression in the 1930s, with great professionalism, based on historical facts.

# XƏZƏR UNİVERSİTETİNƏ LETTERS OF THANKS

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES**

**Xəzər Universitetinin Direktorlar
və Qəyyumlar Şurasının sədri
professor Hamlet İsaxanlıya**

**Hörmətli Hamlet müəllim!**

Qarabağ probleminə həsr edilmiş "Mənim Qarabağım və ya Qarabağ düyünü" və Xəzər Universitetinin və "Dünya" məktəbinin həmtəsisçisi Nailə xanım İsayevanın əziz xatirəsinə həsr olunmuş "Son görüş olmayaydı...", "Nailə xanım İsayeva xatirələrdə" adlı kitabları Azərbaycan Milli Elmlər Akademiyasına təqdim etdiyiniz üçün Sizə təşəkkür edirik.

Sizə çoxşaxəli fəaliyyətinizdə və rəhbərlik etdiyiniz universitetə uğurlar, gələcək işlərinizdə yeni-yeni nailiyyətlər arzu edirik.

*Hörmətlə,*

**AMEA-nın prezidenti v.i.e.** **akademik Arif Həşimov**
*18.04.2022*

**To Professor Hamlet Isakhanli,
Chairman of Khazar University's
Board of Directors, and Trustees**

**Dear Hamlet Isakhanli!**

Thank you for presenting to the Azerbaijan National Academy of Sciences the books "My Karabakh or the Karabakh Knot" dedicated to the Karabakh problem and " Wouldn't be the last meeting... Nailakhanım Isayeva in memories" dedicated to the memory of Naila kanum Isayeva, co-founder of Khazar University and Dunya School.

We wish you success in your multifaceted activities and the university you lead, and new achievements in your future endeavors.

*Sincerely,*

**Acting President of ANAS** **academician Arif Hashimov**
*18.04.2022*

# TƏŞƏKKÜR MƏKTUBLARI
# TO KHAZAR UNIVERSITY

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ**
**AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ**

**Xəzər Universitetinin Direktorlar**
**və Qəyyumlar Şurasının sədri**
**cənab Hamlet İsaxanlıya**

**Hörmətli Hamlet müəllim,**

Tanınmış pedaqoq, təhsil təşkilatçısı, maraqlı musiqiçi Nailə xanım İsayevanın xatirəsinə həsr olunmuş nəfis tərtibli "Son görüş olmayaydı..." ATMU-nun kitabxanasında oxucularımızın istifadəsinə veriləcək. İnciçiçəyi kimi sadə, təmiz və gözəl sevginizin bir parçasını mənimlə paylaşdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

Xatirələrinizi vərəqləyərkən qoşa həyat yolunuzdakı anılarınızı oxumaq xoş oldu-Sizin münasibətiniz musiqi və şeirin birləşərək yaratdığı mahnı kimi ahəngli görünür.

Nə qədər ağır, kövrək xatirələrlə yaşamalı olduğunuzu bilərək, gələcək fəaliyyətlərinizdə ideyalarınızın reallaşması və qələminizin yazması diləyi ilə!

*Hörmətlə,*

*Rektor* **İlham Mədətov**

**To Mr. Hamlet Isakhanli,**
**Chairman of Khazar University's**
**Board of Directors and Trustees**

**Dear Hamlet Isakhanli,**

An elegantly arranged book "Wouldn't be the last meeting ..." dedicated to the memory of the well-known pedagogue, educational organizer, interesting musician Naila Khanum Isayeva will be put at our readers disposal in the library of ATMU. I would like to express my gratitude to you for sharing with me a piece of your love that is as unembellished, pure and beautiful as a may lily. It was a pleasure to read the memories of your life — your relationship seems as harmonious as a song created by a combination of music and poetry. I know how hard and fragile memories you have to live with and I wish you the realization of your ideas and writing in your future activities!

Sincerely,

*Rector* **Ilham Madatov**



## XƏZƏR UNİVERSİTETİNİN TÜRKİYƏ TƏMSİLÇİSİNİN TƏQDİM OLUNMASI İLƏ BAĞLI TƏDBİR

Aprelin 21-də Direktorlar və Qəyyumlar Şurasının görüş otağında Xəzər Universitetinin yeni təyin olunmuş Türkiyə Təmsilçisinin təqdim olunması ilə bağlı tədbir keçirilmişdir.

Tədbiri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı giriş sözü ilə açdıqdan sonra universitetin rektoru dosent İradə Xəlilova yeni təyin olunmuş Türkiyə Təmsilçisi Abdullah Çalışır`ın həyatı və akademik karyerası barədə məlumat vermişdir. Abdullah Çalışır çıxışında ona həvalə edilən bu vəzifəyə görə universitet rəhbərliyinə təşəkkürünü və etimadı doğruldacağını bildirmişdir.

İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva təmsilçiyə yeni işində uğurlar arzulamış və ona təmsilçi vəsiqəsi təqdim olunmuşdur.

## AN EVENT DEDICATED TO THE PRESENTATION OF KHAZAR UNIVERSITY'S TURKISH REPRESENTATIVE




On April 21, an event was held in the meeting room of the Board of Directors and Trustees to introduce the newly appointed Turkish Representative of Khazar University.

After an introductory speech by Professor, Academician Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Rector of the University, Associate Professor Irada Khalilova informed about the life and academic career of the newly appointed Turkish Representative Abdullah Chalishir. In his speech, Abdullah Çalışır thanked the university administration for the task entrusted to him and said he would justify this confidence.

Vice-Rector for Management and Student Affairs Isakhan Isakhanli, Director for Public Relations and Media Alovsat Amirbayli and Head of the Development Center Raziya Isayeva wished the representative success in his new job and presented him with a representative card.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI AMEA-NIN COĞRAFİYA İNSTİTUTUNDA KEÇİRİLƏN SEMİNARDA

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT SEMINAR HELD AT INSTITUTE OF GEOGRAPHY OF ANAS

Xəzər Universitetinin əməkdaşları aprelin 20-də "Horizon Avropa" Proqramı çərçivəsində maliyyələşdirilərək icra olunan "Miqrant agentliyi üçün tarixlərin və arxivlərin əlaqələndirilməsi: Avropa və Aralıq dənizi regionu üzrə qarışıq təsvirlər" adlı layihənin seminarında iştirak ediblər. AMEA-nın Coğrafiya İnstitutunda keçirilən seminar "Miqrasiya problemlərinə yeni baxış: COVID-19 pandemiyasından əvvəl və sonra" mövzusunda olmuşdur. Tədbirdə digər universitetlərin akademik heyəti, alim və mütəxəssislər, miqrasiya sahəsində maraqlı olan qurumların nümayəndələri, o cümlədən Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Nümayəndəliyinin eksperti Yuliya Rıjix iştirak etdilər.

Tədbirə moderatorluq edən, layihənin əlaqələndiricisi, Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müəllimi Rövşən Kərimov beynəlxalq miqrasiyada müşahidə olunan meyillər, miqrasiyaya səbəb olan amillər, xüsusən COVID-19 pandemiyasının təsiri mövzusunda çıxış etdi. Coğrafiya və ətraf mühit departamentinin müdiri, layihənin icraçısı Rövşən Abbasov ölkə ərazisində kənddən şəhərə miqrasiyaya, bu prosesdə ekoloji amillərin təsirinə dair fikirlərini bölüşdü. Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin və Miqrasiya Araşdırmaları Mərkəzinin rəhbəri Ceyhun Məmmədov isə iqtisadiyyatın diversifikasiyası ilə miqrasiya arasındakı asılılığa dair apardığı araşdırmanın nəticələrini təqdim etdi.

On April 20, Khazar University staff members-participated at a seminar on the project "Linking Dates and Archives for Migrant Agencies: Mixed Images for Europe and the Mediterranean Region" funded by the Horizon Europe Program. The seminar held at the Institute of Geography of ANAS was on "A new look at the problems of migration: before and after the COVID-19 pandemic". The event was attended by academic staff of other universities, scientists and specialists, representatives of organizations interested in migration, as well as an expert from the International Organization for Migration in Azerbaijan Yulia Ryzhikh. The event was moderated by Rovshan Karimov, the project coordinator and lecturer at Khazar University's Department of Geography and the Environment, who spoke about trends in international migration and the impact of the COVID-19 pandemic.

Rovshan Abbasov, Head of the Department of Geography and Environment, Project Implementer, shared his views on rural-urban migration in the country and the impact of environmental factors in this process. Jeyhun Mammadov, Head of Khazar University's Department of Economics and Management and the Center for Migration Studies, presented the results of his research on the relationship between economic diversification and migration.



## “XƏZƏR” DİL KURSLARINI UĞURLA BİTİRƏNLƏRƏ SERTİFİKAT TƏQDİM OLUNDU

## CERTIFICATES PRESENTED TO PARTICIPANTS SUCCESSFULLY COMPLETED KHAZAR LANGUAGE COURSES

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamenti nəzdində ingilis dilinin mənimsənilməsi və təkmilləşdirilməsi üzrə dil kursları fəaliyyət göstərir. Dil kurslarının fəaliyyəti yalnız universitetin müəllim və işçi heyətini əhatə etmir. Başqa sözlə, ingilis dilini öyrənmək və bu dildə yazı, dinləmə, danışıq və oxu bacarıqlarını inkişaf etdirmək istəyən hər kəs “Xəzər” dil kurslarına müraciət edə bilər.

Aprel ayının 22-də üç aylıq intensiv kurs müddətini uğurla başa vuranlara sertifikat təqdim olundu. Belə ki, kursun qaydalarına əsasən, üç aylıq dərs müddətinin sonunda iştirakçılar dil səviyyəsi üzrə imtahanda iştirak edir və yüksək nəticə göstərənlərə “Xəzər” dil kursları adından sertifikat təqdim olunur.

Növbəti dəfə Xəzər Universitetinin tələbələri Fuad Yaminli, Leyla Səfərli və Vahid Dövlətov “pre-intermediate” səviyyəsi üzrə, məktəbli Nəzrin Pənahova isə “elementary” səviyyəsi üzrə sertifikata layiq görülüblər.

Khazar University’s Department of English Language and Literature offers language courses to help you master and improve your English. The activities of language courses do not only cover the faculty and staff of the university. In other words, anyone who wants to learn English and develop their writing, listening, speaking and reading skills in this language can apply to Khazar Language Courses.

On April 22, those who successfully completed the three-month intensive course were awarded a certificate.Thus, according to the rules of the course, at the end of the three-month course, participants take an exam on the language level, and those who show high results are awarded a certificate on behalf of the Khazar Language Courses.

At the pre-intermediate level Khazar University students Fuad Yaminli, Leyla Safarli, and Vahid Dovlatov, and at the elementary level schoolgirl Nazrin Panahova were awarded a certificate.

# XƏZƏR UNİVERSİTETİ *“CELT COLLEGES”*-İN TƏŞKİL ETDİYİ BEYNƏLXALQ SƏRGİDƏ



Aprelin 23-ü və 24-də Bakıdakı Hilton otelində *“CELT Colleges”* – Beynəlxalq İngilis dili Tədris Mərkəzi tərəfindən Türkiyə və Avropa universitetlərinin Təhsil sərgisi keçirildi. Təhsil sərgisində Türkiyə və Avropanın 30-a yaxın universitetləri ilə yanaşı, Xəzər Universiteti də iştirak etdi.

Xəzər Universitetinin sərgisi iştirakçılarda böyük maraq doğurmuş, universitet əməkdaşları müraciət edənlərə ətraflı məlumatlar vermiş, onların suallarını cavablandırmışlar. Eyni zamanda, sərgidə iştirak edən bir sıra universitetlərlə qarşılıqlı əlaqələr qurulması yolunda ilk addımlar atılmışdır.

Sərgidə Xəzər Universitetini İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Arzu Bədəlova təmsil etmişlər.

# KHAZAR UNIVERSITY AT INTERNATIONAL EXHIBITION ORGANIZED *BY CELT COLLEGES*

CELT Colleges - International English Language Teaching Center hosted an Education Exhibition of Turkish and European Universities on April 23 and 24, at the Hilton Hotel in Baku. Along with about 30 universities in Turkey and Europe, Khazar University also participated at the education exhibition.

Khazar University aroused great interest among participants, and university staff provided detailed information to those interested and answered their questions. At the same time, the first steps have been taken to establish relations with a number of universities participating in the exhibition.

Khazar University was represented at the exhibition by Alovsat Amirbeyli, Director of Public Relations and Media, Lamiya Namazova, Head of Admissions and Student Affairs, and Arzu Badalova, Coordinator of the International Relations Department.



## TƏLƏBƏLƏR ABŞERON MİLLİ PARKINDA

Aprelin 24-də Xəzər Universitetində Coğrafiya və Tarix-coğrafiya ixsitsasları üzrə təhsil alan tələbələr Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə Abşeron Milli Parkında olmuşlar. Milli parkda tələbələr Azərbaycanın ən ucqar şərq nöqtəsi və Abşeron yarımadasının ən son yeri olan Şah dilinə yürüş etmişlər.

Səfər çərçivəsində onlar həm də Abşeron Milli Parkının rəhbərliyi və buraya səfər edən xarici tədqiqatçılar ilə görüşmüşlər. Görüşdə Abşeron yarımadasının və Xəzər dənizinin ekoloji problemləri müzakirə olunmuşdur.

## STUDENTS IN ABSHERON NATIONAL PARK

On April 24, students majoring in Geography and Historical Geography at Khazar University visited the Absheron National Park, organized by the Department of Geography and Environment. In the national park, students went to Shah dili, the easternmost point of Azerbaijan and the most remote place on the Absheron Peninsula.

During the visit, they also met with the management of the Absheron National Park and visiting foreign researchers. During the meetings, the history of the Absheron National Park, information on the protected landscape, animal and plant species, environmental problems of the Absheron Peninsula and the Caspian Sea were discussed.

## TƏLƏBƏLƏR QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA

## STUDENTS IN GOBUSTAN STATE HISTORICAL-ARTISTIC RESERVE




Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayevanın rəhbərliyi ilə aprelin 25-də "Qobustan dövlət tarixi-bədii qoruğu"nda olublar.

Tələbələrə muzeyin bələdçi əməkdaşları tərəfindən Azərbaycanın mədəniyyət irsi və Qobustan abidəsi haqqında ətraflı məlumatlar verilib. Azərbaycan tarixi fənnində öyrəndikləri mədəni abidə ilə əyani tanışlıq tələbələrin böyük marağına səbəb olub.

Students at Khazar University's School of Economics and Management, with Kamala Mustafayeva, the teacher in the Department of History and Archeology, visited the "Gobustan State Historical and Artistic Reserve" on April 25,

The students were given detailed information about the cultural heritage of Azerbaijan and the Gobustan monument by the museum's guide staff. Visual acquaintance with the cultural monument they studied in the subject History of Azerbaijan caused great interest of students.




# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ

# NEXT SESSION OF "ASSEMBLY OF SCIENCE AND ART" HELD

Aprelin 26-da Xəzər Universitetinin Mərkəz kampusunda ənənəvi "Elm və Sənət Məclisi"nin "Dünya və Azərbaycan: su ehtiyatları və dayanıqlı istifadə problemləri" mövzusunda 73-cü məşğələsi keçirildi.

Tədbiri giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının Sədri, professor, akademik Hamlet İsaxanlı açaraq, dünyada və Azərbaycanda bu gün suyun rolundan danışdı. Bu mövzu ilə əlaqədar məruzə üçün sözü Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasova verdi.

R. Abbasov elmi araşdırmalara əsaslanan geniş məruzə ilə çıxış etdi. Məruzə ətrafında müzakirələrdə Hamlet İsaxanlı, İradə Xəlilova, İnqilab Əhmədov (Xəzər Universiteti), Məxluqə Hüseynova (BDU), Əlövsət Quliyev (AMEA-nın müxbir üzvü), Qorxmaz İbrahimli (QHT), Rza Mahmudov (AMEA), Vasif Yəhyayev (AZƏRSU), Asim Səmədov (Meliorasiya İdarəsi) və digərləri çıxış etdilər. Çay süfrəsi ətrafında elmi söhbətlər davam etdirildi.

On April 26, Khazar University's Downtown Campus hosted the 73rd session of the traditional Assembly of Science and Art on "The World and Azerbaijan: Water Resources and Sustainable Use."

Khazar University Founder, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli opened the event with an introductory speech and spoke about the role of water in the world and in Azerbaijan today. The floor was given to Dr. Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University to speak on this issue.

R. Abbasov made a comprehensive report based on scientific research. Hamlet Isakhanli, Irada Khalilova, Ingilab Ahmadov (Khazar University), Makhluga Huseynova (BSU), Alovsat Guliyev (corresponding member of ANAS), Gorkhmaz Ibrahimli (NGO), Rza Mahmudov (ANAS), Vasif Yahyayev (AZERSU), Asim Samadov (Land Reclamation Department) and others spoke in the discussions around the report.




# EQO ÖLDÜYÜNDƏ RUH OYANAR

(esse)

**Ləman Həşımova**

*Humanitar, təhsil və sosial elmlər fakültəsinin Filologiya ixtisası üzrə III kurs tələbəsi*

*Covanni Bokkaççonun "Dekameron" əsərini oxuyarkən*

Bokkaççonun məşhur "Dekameron" əsəri 1350-1353-cü illərdə yazılmışdır. Əsər oxucularda o dövrün italyan cəmiyyəti haqqında təsəvvür yaradır. Nəsihətamiz tərzdə yazılan bu əsər o dövrün tanınmış yazarları tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, onlar Bokkaççonun "Dekameron" əsərini məşhur İtalyan şairi Dantenin "İlahi komediya" əsərinə bərabər bir əsər hesab etmişlər.

"Dekameron" həm də "Dünyanın yaradılışı" haqqındadır. Amma bu dünyanı tanrı yox, insan cəmiyyəti, 6 günə yox, 10 günə yaradır. Bu əsərdə bir insan digər insanlara xitab edir. Əsərdə din, əxlaq, günah, savab kimi faktorlar aparıcı rol oynamır. Əsərdə nəzərə çarpan əsas hissə hadisələrin anladılması tərzidir. Hekayələri oxuyarkən də görürük ki, burada yazıçının hər hansısa bir günah obyekti yoxdur. O, ən böyük günahı belə adi bir hadisə kimi göstərərək, əsərdən götürüləcək dərsləri oxucunun vicdanına buraxmışdır

1348-ci ildə İtaliyanın ən gözəl şəhərlərindən biri olan Florensiyada yaranmış vəba xəstəliyi əhalinin sayının getdikcə azalmasına səbəb olur. Xəstəliyin qarşısını almaq üçün bir çox tədbirlər görülmüş, hətta Allahdan kömək istəmək üçün xüsusi tövbə və dua günləri təyin edilmişdi. Təyin edilmiş günlərdə insanlar ibadətgahlara yığışar və Allaha dualar edərdilər. Bütün bunlara baxmayaraq, xəstəlik getdikcə ağırlaşırdı. Hətta məmurlar, din xadimləri belə, bu xəstəliyə tutulur və ölürdülər. Dəhşətlisi onda idi ki, insanlar bir-birlərinə kömək etmirdilər. Yardım edilərsə də, sağalacaq insanları tənha buraxıb gedirdilər. İnsanlar öz doğmalarına belə mərhəmət etmirdilər. Bütün bunlar o dövrdə əhalinin sayının getdikcə azalmasına səbəb olmuşdu.

Şəhərdə əhalinin yox dərəcəsində olduğu bir vaxtda 7 gənc qız bir səhər kilsədə dua edirdilər. Onların hər biri nüfuzlu ailələrin qızlarıdır.

Dualarını etdikdən sonra aralarında ən böyük qız Panpine deyir: "Xəstəliyin getdikcə şiddətləndiyi bu zamanda şəhərdə qalmağımız təhlükəlidir. Ətrafımızda ancaq ölü və xəstəlikdən fəryad edən insanlar var. Yaxşısı budur ki, kəndlərdəki evlərimizə gedək. İnanıram ki, təmiz hava, yaşıllıq hər birimizə yaxşı təsir bağışlayacaq". Panpine`nin bu fikrini hər kəs gözəl qarşılayır. Lakin aralarında ən sadəlövh qız olan Filamena deyir ki, mən sizin fikrinizlə razıyam, amma biz xanımlar bu işin öhdəsindən təkbaşına gələ bilmərik. Çünki biz zərif varlıqlarıq və daim köməyə ehtiyacımız var. Yaxşısı budur ki, yanımızda bizi qoruyacaq oğlanlar da olsun. Filamena`nın bu fikri ilə razılaşan Eliza`nı oğlanları haradan tapacaqları fikri düşündürür. Bu zaman gözlənilmədən kilsəyə 3 oğlan daxil olur. Əslində. onlar tanış idilər. Belə ki, Neifile bu gənclərdən birinin sevgilisi idi. Panpine`nin isə onlardan biri ilə səmimiyyəti var idi. Həmçinin, digər qızlar da oğlanları tanıyırdılar. Panpine vaxtı uzatmadan sözə başladı. O, oğlanlara qurduqları planı danışanda onlar əvvəlcə inanmadılar. Lakin daha sonra qızların ciddi olduqlarını görüb. onlarla razılaşdılar. Beləliklə, gənclər yola düşürlər.

Onlar istədikləri yerə çatanda Panpine belə bir qərara gəlir ki, ilk növbədə intizam olmalıdır. Bunun üçün aralarından bir nəfəri məsləhətçi təyin etmək fikrini irəli sürür. Məsləhətçi qərarlar qəbul edəcək və birliyi qoruyacaqdı. Hər kəs onunla razılaşır. Beləliklə, Panpine məsləhətçi seçilir. Panpine ilk olaraq qanunlar tərtib




edir. O, hər kəsin görəcəyi işləri təyin edir. Hər biri öz vəzifəsini yerinə yetirərsə, evdəki nizam pozulmayacaqdı. Beləcə, gün ərzində hər kəs öz öhdəliyini yerinə yetirməyə başlayır. Bir gün günortaya yaxın Panpine çəmənliyə gedib, istirahət etmələrini uyğun görür. Onlar belə qərara gəlirlər ki, hər kəs bildiyi maraqlı bir hekayə danışsa, vaxtları səmərəli keçər. Beləliklə, hər biri bildiyi bir hekayəni danışmağa başlayır.

Dekameron əsərində bəhs olunan hekayələr bir-birindən gözəldir. Amma mən sizə ən çox sevdiyim hekayə olan 100-cü hekayə haqqında danışmaq istəyirəm. Çünki biz 100-cü hekayədə Grizella`nın timsalında eqolarımızdan təmizlənməyin nə dərəcədə əhəmiyyətli olduğunu aydın şəkildə görürük.

...Salüzzo ailəsinin ən böyük oğlu olan Valter kübar bir gənc idi. O, vaxtının çoxunu ovda keçirər, evlənməyi qətiyyən düşünməzdi. Ətrafı isə onun bu rahatlığından narahat olardı. Hamı ona evlənib, soyunu çoxaltmağı məsləhət görərdi. Valter isə onlarla razılaşmazdı. Bütün təzyiqlərdən sonra, bir gün Valter onlarla razılaşır. Lakin o bildirir ki, evliliyim uğursuz olarsa, sizləri günahkar bilmək istəmirəm. Ona görə də, evlənəcəyim qızı özüm seçəcəyəm. Onunla razılaşırlar.

Valter ağıllı bir gənc idi. Onun kəndlərin birindən kasıb bir ailənin qızından xoşu gəlirdi. Həmin qızla evlənəcəyi təqdirdə xoşbəxt olacağına inanan Valter qızın atası ilə danışmaq qərarına gəlir.

Qocanın razılığını aldıqdan sonra evinə qayıdan Valter ailəsinə bildirir ki, mən sizin təkidiniz ilə evlənirəm, siz də mənim xanımıma sonsuz hörmət bəsləmək məcburiyyətindəsiniz. Ailənin razığılını aldıqdan sonra Valter qocanın yanına gedir və ona: "Qızınız Grizella`nı özümə həyat yoldaşı olaraq seçirəm. Lakin sizin hüzurunuzda mənə bəzi vədlər verməsini istəyirəm" - deyərək, qızı çağırtdırır. Qız atasının yanında Valterə söz verir ki, nə olur-olsun, ərinin sözündən çıxmayacaq. Atasının



da razılığını alan Valter, Grizella`nı götürüb şəhərə qayıdır. Onları sevinclə qarşılayırlar. Valter Grizella`ya adlı-sanlı toy edir. Grizella`ya çoxlu hədiyyələr verilir, hamı onları ürəkdən təbrik edir. Evləndikdən sonra Grizella`nın bir qızı dünyaya gəlir. Grizella kənd mühitində böyüməsinə baxmayaraq, evləndikdən sonra özünü əsl xanım kimi aparırdı. Ona qibtə edirdilər. Valter də ondan tamamilə razı idi.

Lakin birdən Valterin ağlına bir fikir gəlir. O, Grizella`nı yoxlamaq istəyir. Onunla kobud rəftar edərək, necə reaksiya verəcəyini görmək istəyirdi. Grizella Valter`in bütün təhqirləri qarşısında dinməz qalır. O, hər dəfə Valter`in onun ağası olduğunu bildirir. Çox keçmir ki, Valter başqa planlar qurur. O, əvvəlcə öldürmək adı ilə qızını Grizella`dan aldırır. Grizella yenə də sakitcə qızını nökərlərə təhvil verir. Bir müddət sonra onların bir oğlu olur və Valter bu uşağı da öldürmək adı ilə Grizella`dan alır. Grizella`nın səbrli davranışları Valter`i təəccübləndirir. Amma Valter zövcəsinin ona bağlı olduğunu görüb, ürəyinin dərinliyində sevinirdi. O, son olaraq Grizella`ya bildirdi ki, artıq onunla evli qala bilməz, çünki onunla məcburiyyət qarşısında evlənib. Qız onun bu fikri ilə də razılaşır. Lakin Valter`in bir şərti var idi; Grizella atasının evindən gələndə heç nə gətirmədiyinə görə, eləcə də qayıtmalı idi. Ailəsi və ətrafdakılar onu çox qınayır. Valterə insaf etməsini, heç olmaya qızı bir paltarla yola salmasını xahiş edirlər. Valter Grizella`nı bircə paltarda atasının evinə göndərir. Atası isə bir gün qızının geri dönəcəyini bilirdi. Beləcə, qız yenidən köhnə həyatına başlayır. Valter son olaraq, başqası ilə nişanlandığını deyib, toy hazırlıqları üçün Grizella`nı yanına çağırır. Grizella yenə də onun sözündən çıxmır. Köhnə paltarlarını geyinib, hazırlığa başlayır.

Artıq Valter Grizella`nı kifayət qədər sınadığını düşünüb, onu yanında oturdurur. Hər şeyin oyundan ibarət olduğunu, övladlarının həyatda olduğunu bildirir. Grizella`ya gözəl ürəyi, sədaqəti, bağlılığı və ləyaqəti üçün təşəkkür edir. Hər kəs Grizella`ya alqış edib, onun kamilliyinə heyran qalır.

Müasir oxucu üçün əsərin mövzusu nikahda təslimiyyət və itaətkarlıqdır. Lakin bu düzgün fikir deyil. Əsərdə yazıçı Grizella`nın timsalında kamil qadın obrazını yaratmışdır. Grizella Valter`in nəcib ailəsinə yaraşan bir qız idi. Lakin Valter onun xarakterinin dərinliyindən əmin deyildi. Belə olan halda, Valter Grizella`nın sədaqətini və səbrini sınamaq üçün ona mənəvi və fiziki zərbələr endirir. Grizella isə ərinin bütün əzab-əziyyətinə dözərək, öz sadiqliyini sübut edir. O, ərinin könlünü xoş etmək üçün hətta övladlarından belə keçir. Çünki Grizella əvvəldən Valterə hər zaman nə olur-olsun, itaət edəcəyinə söz vermişdi.

Doğrudur, bir xanımı bu tərzdə alçaltmaq düzgün deyil. Amma hekayədə də görürük ki, Valter Grizella`nı sınağa çəkir. Grizella isə öz növbəsində uzaqgörən bir qadın kimi səbrlə hərəkət edərək, Valterin sınağından uğurla keçir. Əsərdəki hadisələri indiki dövrümüzlə müqayisə etdikdə aydın şəkildə görürük ki, artıq Grizella kimi xanımlar olduqca azdır.

Mən əsəri oxuyarkən bəzən Grizella`ya acıyırdım. Bir qadın özünü necə belə heç edə bilərdi ki? Bir oğlana görə dəyərdimi? Əlbəttə ki, dəyməzdi. Amma daha sonra Grizella`ya haqq verdim. Çünki onun səbr etməyi Valter`ə görə deyildi. Onun şəxsi keyfiyyətləri imkan vermirdi ki, o isyan etsin. Düzdür, Grizella Valter tərəfindən çox alçaldılır. Lakin bir o qədər də ucalır.

Əsər ilə tanış olmasaydım, şübhəsiz ki, Grizella kimi düşünməzdim. Çünki mən hər zaman asi ruhlu biri olmuşam. Bu əsər məni dünyaya ayrı bir prizmadan baxmağa məcbur etdi. Grizella mənə həyatda sükutun, sükunətin mahiyyətini öyrətdi.

İnsanlar təəssüf ki, digər canlılardan fərqli olaraq eqolu varlıqlardır. Xüsusilə, bunu qadınlarda daha çox müşahidə edirik. Düzdür, qadın zərif, incə varlıqdır. Amma bu o demək deyil ki, qadın hər bir situasiyada eqolarının əsirinə çevrilməlidir. Grizella`da eqoya məxsus heç bir əlamət yoxdur. Biz bunu Valter`in toy səhnəsində aydın şəkildə görürük. Bəzən oxucular düşünə bilərlər ki, belə hadisələrə göz yummaq qadının özünə olan hörmətsizliyidir. Amma mən artıq belə düşünmürəm.

Çünki Grizella o qədər kamil bir qız idi ki, kiminsə ona qarşı yanlış hərəkəti ondan hörmət əskildə bilməzdi. Onların münasibəti digər insanların münasibəti kimi sıradan ola bilərdi. Amma olmadı. Olmadı, çünki onlara bu şans verildi. Bu şans isə onların münasibətini tamamilə dəyişdi. Onlar əvvəlcə əzab çəkdilər. Əzab çəkdilər ki, təmizlənsinlər. Əzab çəkdilər ki, digərlərindən fərqlənsinlər.

Kamillik insana birdən-birə verilmir. İnsan o mərtəbəyə çatmaq üçün müəyyən yollardan keçməlidir (Grizella`nın ötüb keçən illəri kimi). Bundan əlavə, mən düşünürəm ki, evlilik müqəddəs bir bağdır. Bu müqəddəsliyi qorumaqda ən böyük rol qadınlara düşür. Çünki qadınlar zərif olduqları kimi, bir o qədər də təmkinli, instinktləri güclü varlıqlardır. Qadınlar kişilərə nisbətən hadisələrin axarını əvvəlcədən sezə bilirlər.

Kamil qadınlar isə sezgilərinə güvənirlər, eqolarına yox. Eynən Grizella kimi. O, kasıb, yoxsul bir ailədə böyüsə də, ruhunun necə saf olduğunu sübut edir. Düşünürəm ki, hazırkı dövrümüzün bir çox probleminə toxunan bu əsər insanlığın xilasına səbəb ola bilər. Çünki bəşəriyyətin inkişafı qadınların mənəvi inkişafından asılıdır.

Azərbaycan Respublikasının Milli Məclisi

## MİLLİ MƏCLİSİN SƏDRİNƏ MÜRACİƏTİ XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI DA İMZALAYIB

## KHAZAR UNIVERSITY STAFF MEMBERS SIGN THE APPEAL TO THE CHAIRMAN OF MILLI MAJLIS

2022-ci il aprelin 7-də ictimai-siyasi təmayüllü "*Bakı Xəbər*" qəzetində, *qlobal.az* və digər saytlarda dövlət dilinin tətbiqində konstitusiya tələblərinin pozulması ilə əlaqədar Azərbaycanın 200-dən artıq ziyalısının Milli Məclisin sədri Sahibə Qafarovaya müraciəti dərc olunub.

Müraciətdə göstərilir ki, "Filoloji Araşdırmalar və Dil Monitorinqi Mərkəzi" İctimai Birliyinin keçirdiyi monitorinq zamanı məlum olub ki, paytaxtın mərkəzi küçə və prospektlərində ticarət və xidmət obyektlərinin 70-80 faizində dövlət dilindən istifadə edilmir.

Müraciəti Xəzər Universitetinin əməkdaşları – İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev də imzalamışlar.

On April 7, 2022, the socio-political newspaper "*Baku Khabar*", *global.az* and other sites published an appeal of more than 200 Azerbaijani intellectuals to the Speaker of the Milli Majlis Sahiba Gafarova regarding with the violation of constitutional requirements in the use of the state language.

According to the appeal, during the monitoring conducted by the Center for Philological Research and Language Monitoring, it was found out that 70-80 percent of trade and service facilities in the central streets and avenues of the capital do not use the state language.

The appeal was also signed by Khazar University employees - Alovsat Amirbayli, Director of Public Relations and Media, and Alirza Balayev, Deputy Editor-in-Chief of Khazar Khabar magazine and an honored journalist.

***https://www.baki-xeber.com/sosial/137713.html***
***https://qlobal.az/200-den-artiq-ziyali-sahibe-qafarovaya-muraciet-edib/#.Yk7U1FVBzIU***

## DEPARTAMENT MÜDİRİ *TREND*'İN SORĞUSUNU CAVABLANDIRIB

## DEPARTMENT HEAD RESPONDS TO *TREND*'S INQUIRY

trend news agency

2020-ci il aprelin 11-də *Trend* Xəbər Agentliyi "Xəzərin suyu niyə azalır?" sorğusuna Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri, AZƏRSU ASC yanında İctimai Şuranın üzvü Rövşən Abbasovun cavabını dərc edib.

Rövşən Abbasov Xəzərdə suyun azalmasını dənizə tökülən çayların suyunun azalması və qlobal istiləşmənin nəticələri ilə əlaqələndirərək qeyd edib ki, "Xəzər dənizinin suyu yaya doğru getdikcə artacaq, çünki Xəzərə su gətirən çayların hövzələrində qar əriyir. Bu da çaylarda bolsululuq yaradır."

Yazını digər saytlar da dərc edib.

On April 11, 2020, *Trend* News Agency published the answer of Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University and the member of the Public Council at AZERSU OJSC to the inquiry "Why is the Caspian Sea declining?"

Rovshan Abbasov linked the decrease in water in the Caspian Sea with the reduction of rivers flowing into the sea and the consequences of global warming, noting that "the water level in the Caspian Sea will increase towards summer, as snow melts in river basins. This creates abundance in the rivers."

The article was published by other sites.

***https://az.trend.az/azerbaijan/society/3580356.html***

creative Spark

## GƏNC SAHİBKARLAR ÜÇÜN SİLSİLƏ TƏLİMLƏR

## A SERIES OF TRAININGS FOR YOUNG ENTREPRENEURS





Xəzər Universiteti Böyük Britaniyanın Middlesex Universiteti ilə əməkdaşlıq edərək, British Council-ın Creative Spark Ali Təhsil Müəssisə Proqramının dəstəyi ilə gənc sahibkarlar üçün silsilə təlimlər təşkil edir.

Aprelin 13-də Creative Spark Enterprise Hub çərçivəsində gənc sahibkarlar üçün nəzərdə tutulmuş növbəti tədbir keçirildi. Tədbirdə WTEAM-ın təsisçisi, icraçı direktoru Gülnar Absalamova və həmtəsisçisi Tural Zəkəryazadə startap və innovasiya ilə bağlı təcrübələrini bölüşdülər, gənc sahibkarları bu sahədə daha da həvəsləndirdilər. Layihələrinin məqsədi haqqında onlara məlumat verdilər.

Tədbirin son hissəsində gənc sahibkarların sualları cavablandırıldı və müzakirələr aparıldı.

Khazar University, in partnership with Middlesex University in the United Kingdom, is organizing a series of trainings for young entrepreneurs with the support of the British Council's Creative Spark Higher Education Enterprise Program.

On April 13, the next event for young entrepreneurs was held within the Creative Spark Enterprise Hub. At the event, Gulnar Absalamova, founder and CEO of WTEAM, and Tural Zakaryazadeh, co-founder, shared their experiences on startups and innovation, and encouraged young entrepreneurs in this field. They were informed about the purpose of their projects.

In the last part of the event, the questions of young entrepreneurs were answered and discussions were held.

## ERASMUS+ ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏDBİR

Erasmus+

## EVENT WITHIN ERASMUS+ ECAR PROJECT

Aprelin 20-də Bakı Biznes Universitetində Xəzər Universitetinin tərəfdaş olduğu "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) Erasmus+ layihəsi çərçivəsində Rektorlar Konfransı üçün hazırlanmış sənədin ilkin müzakirəsi keçirilmişdir.

Görüşdə layihənin koordinatoru olan Bakı Biznes Universiteti və tərəfdaş universitetlərdən koordinasiya komissiyasının üzvləri iştirak etmiş və nizamnaməyə edilən yeni təkliflərin müzakirəsi olmuşdur.

Tədbirdə Xəzər Universitetini Beynəlxalq Əlaqələr üzrə prorektor Vlad Vernygora və İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva təmsil etmişlər.

On April 20, Baku Business University hosted a preliminary discussion of a document prepared for the Rectors 'Conference within the framework of the Erasmus+ project "Establishment of Rectors' Conference in Azerbaijan" (ECAR), to which Khazar University is a partner.

The meeting was attended by the project coordinator, Baku Business University and members of the coordination commission from partner universities, and new proposals for the charter were discussed.

Khazar University was represented at the event by Vlad Vernygora, Vice Rector for International Relations, and Raziya Isayeva, Head of the Development Center.

## TED UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ

Aprelin 20-də Xəzər Universitetində TED Universitetinin Beynəlxalq əlaqələr ofisinin rəhbəri Yigit Koçer və Beynəlxalq əlaqələr üzrə mütəxəssis Berrak Yıldırım ilə görüş keçirildi.

Görüşdə Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva, Təbiət elmləri, sənət və texnologiya üzrə yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova və Beynəlxalq əlaqələr ofisindən Fatimə Vəliyeva və Arzu Bədəlova iştirak etdilər.

Görüşdə hər iki təhsil müəssisəsi arasında tərəfdaşlıq əlaqələrinin və akademik əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparıldı.

Qeyd edək ki, Ankarada yerləşən TED Universiteti 2012-ci ildə Türkiyə Təhsil Dərnəyi tərəfindən təsis olunmuşdur.

## MEETING WITH TED UNIVERSITY STAFF MEMBERS

On April 20, Khazar University hosted a meeting with Yigit Kocher, Head of TED University's International Relations Office, and Berrak Yildirim, International Relations Specialist.

The meeting was attended by Vice-Rector for International Relations Vlad Vernygora, Head of the Development Center Raziya Isayeva, Dean of the Graduate School of Science, Arts and Technology Saida Sharifova and employees of International Relations Office Fatima Valiyeva and Arzu Badalova.

The meeting focused on strengthening partnerships and academic ties between the two educational institutions.

It should be noted that TED University, located in Ankara, was established in 2012 by the Turkish Education Association.





## “CREATIVE SPARK” LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ BOOT CAMP

Aprelin 22-də Xəzər Universiteti və Middlesex Universitetinin əməkdaşlığı ilə British Council-ın “*Creative Spark*” layihəsi çərçivəsində Enterprise Hub platforması daxilində Təbiət elmləri və mühəndisilik fakültəsinin tələbələri üçün bootcamp təşkil olunub.

Boot camp Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayevanın mentorluğu ilə keçirildi. O, Creative Spark layihəsi çərçivəsində keçirilən silsilə tədbirlərin məqsədi və əhəmiyyətindən bəhs edib. Sonra tələbələr qruplar şəklində öz biznes ideyaları üzərində işləyiblər. Bu müddət ərzində İnkişaf ofisinin layihə rəhbərləri Səbinə Quliyeva və Məhin Cəbrayılova tədqiqat bacarıqları ilə bağlı tələbələrə kömək göstəriblər. Bootcampın sonunda komandalar öz biznes ideyalarını təqdim ediblər.

CREATIVE SPARK

## BOOT CAMP WITHIN “CREATIVE SPARK” PROJECT

On April 22, a boot camp for students of the School of Science and Engineering was organized within the Enterprise Hub platform as part of the British Council’s *Creative Spark* project in collaboration with Khazar University and Middlesex University.

Bootcamp was mentored by Raziya Isayeva, Director of Khazar University Development Center. She spoke about the purpose and importance of a series of events held within Creative Spark project. Then the students worked in groups on their business ideas. During this time, Sabina Guliyeva and Mahin Jabrailova, Project Managers of the Development Office, assisted the students with their research skills. At the end of the boot camp, the teams presented their business ideas.



## "İQLİM DƏYİŞİKLİYİNƏ DAİR MƏSULİYYƏT" LAYİHƏSİNİN (*ARCC*) YEKUN KONFRANSI

Aprelin 25-də Xəzər Universitetinin tərəfdaş olduğu London Middlesex Universitetinin təşkilatçılığı, British Councilın maliyyə dəstəyi ilə həyata keçirilən "İqlim dəyişikliyinə dair məsuliyyət" layihəsinin (*arCc*) yekun konfransı keçirilmişdir.

Virtual keçirilən konfransda layihənin 13 ölkədən olan tərəfdaşları daxil olmaqla 200-dən çox nümayəndə iştirak edirdi.

Tədbirdə Xəzər Universitetindən İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva, Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, departamentin müəllimləri Şahnaz Amanova, Rövşən Kərimov və tədbirin qonaq natiqi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin baş məsləhətçisi Ceyhun Hacıbəyli iqlim dəyişikliyi ilə bağlı müxtəlif mövzularda çıxış etmişlər.

Konfransın növbəti panelində layihə çərçivəsində tərəfdaş universitetlərin tələbələri arasında keçirilmiş yarışmanın səs verməsi baş tutdu.

Qeyd edək ki, Xəzər Universiteti "Dünya" məktəbinin şagirdi Mirsəid Seyidov Azərbaycanı finalda təmsil edirdi.

## FINAL CONFERENCE OF ASSUMING RESPONSIBILITY FOR CLIMATE CHANGE

On April 25, the final conference of "Assuming Responsibility for Climate Change" (*arCc*) project, organized by Middlesex University in partnership with Khazar University and funded by the British Council, was held.

The virtual conference was attended by more than 200 representatives, including project partners from 13 countries.

Raziya Isayeva, Head of the Development Center, Rovshan Abbasov, Head of the Geography and Environment Department, Shahnaz Amanova, Rovshan Karimov, teachers of the department from Khazar University and guest speaker Jeyhun Hajibeyli, Chief Adviser to the Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan, spoke on various topics related to climate change.

At the next panel of the conference, the voting of the competition held among students of partner universities within the project took place.

Note that Mirsaid Seyidov, a student at Khazar University's Dunya School, represented Azerbaijan in the final.

## "TURİZM SAHƏSİNDƏ QADIN SAHİBKARLIĞI" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "FEMALE ENTREPRENEURSHIP IN TOURISM INDUSTRY" WITHIN PICASP PROJECT BY AYGUN GARDINER

Aprelin 27-də Xəzər Universitetində İnkişaf Mərkəzi və İqtisadiyyat və menecment fakültəsinin birgə təşkilatçılığı ilə Erasmus+ PICASP layihəsi çərçivəsində "Turizm sahəsində qadın sahibkarlığı" mövzusunda hibrid seminar keçirilmişdir. Seminarın qonaq spikeri Diverse School Travel şirkətinin təsisçisi və direktoru, eyni zamanda Educational Travel şirkətinin mütəxəssisi Aygün Gardiner oldu.

Tədbir İnkişaf Ofisinin rəhbəri Raziyə İsayevanın giriş sözü ilə başladı. Seminarın əsas mövzusu mədəni irs və təhsil turizmi idi. Aygün Gardiner təqdimatında İngiltərədəki təhsil turizmi təcrübəsindən bəhs etdi, öz sahibkarlıq fəaliyyətindən və bu yolda qarşılaşdığı çətinliklərdən danışdı.

Seminar sual-cavab sessiyası ilə yekunlaşdı.

Seminara universitetin əməkdaşları və İqtisadiyyat menecment fakültəsinin tələbələri qatılmışdılar.

On April 27, Khazar University hosted a hybrid seminar on "Female Entrepreneurship in Tourism Industry" organized by the Development Center and the Faculty of Economics and Management within the Erasmus+ PICASP project. The guest speaker of the seminar was Aygun Gardiner, the founder and director of Diverse School Travel, as well as a specialist of Educational Travel company.

The event began with an introductory speech by the Head of the Development Office, Raziya Isayeva. The main topic of the seminar was cultural heritage and educational tourism. Aygun Gardiner gave a presentation and spoke about experience of educational tourism in England.

Then Aygun Gardiner spoke about her entrepreneurship experience and the challenges she faced along the way. The seminar ended with a question and answer session.

The seminar was attended by university staff and students of the Faculty of Economics and Management.

## "XƏZƏR XƏBƏR"İN ƏMƏKDAŞI AZƏRBAYCAN YARADICILIQ FONDUNUN TƏDBİRİNDƏ

"Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev aprelin 18-də Azərbaycan Yaradıcılıq Fondunda görkəmli rejissor, Xalq artisti Oqtay Mirqasımovla keçirilən görüşdə iştirak etmişdir.

Ölkə ziyalıları və mədəniyyət işçilərinin iştirakı ilə keçən görüşü fondun sədr müavini, əməkdar mədəniyyət işçisi Rafiq Kaşanlı açaraq, Oqtay Mirqasımovun kino yaradıcılığı haqqında geniş məlumat vermişdir. Çıxış edənlər, o cümlədən Ə.Balayev rejissorun sənədli və bədii film sahəsindəki uğurlu işlərindən danışmış, fikirlərini bildirmişlər.

Sonra Oqtay Mirqasımov iştirakçıların suallarını cavablandırıb, Azərbaycan kino sənətinin hazırkı problemlərinə toxunub.

## "KHAZAR KHABAR" EMPLOYEE AT THE EVENT OF AZERBAIJAN CREATIVITY FOUNDATION

Deputy Editor-in-Chief of "Khazar Khabar" magazine, Honored Journalist Alirza Balayev took part in a meeting with prominent director, People's Artist Ogtay Mirgasimov on April 18, at the Azerbaijan Creativity Foundation.

Opening the meeting attended by the country's intellectuals and cultural workers, the deputy chairman of the foundation, honored cultural worker Rafig Kashanli gave detailed information about Ogtay Mirgasimov's cinematography. Speakers, including A. Balayev, spoke about the director's successful work in the field of documentaries and feature films, and expressed their views.

Then Ogtay Mirgasimov answered the questions of the participants and touched upon the current problems of Azerbaijani cinema.

## "BİZNES ETİKASININ ƏSASLARI" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "ESSENTIALS OF BUSINESS ETHICS"





Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi Azərbaycan Etika və Uyğunluq Şəbəkəsi ilə birlikdə aprelin 26-da "Biznes Etikasının Əsasları" mövzusunda seminar təşkil etmişdir. Azərbaycan Etika və Uyğunluq Şəbəkəsi və Universitet əlaqələrinin məqsədi tələbələr arasında etika və uyğunluq mədəniyyətinin təbliğinə yönəlmiş fəaliyyət planı hazırlamaq və həyata keçirməkdir.

Seminarda Azərbaycan Etika və Uyğunluq Şəbəkəsi üzvləri qismində Azercell Telekom MMC-nin Etika və Uyğunluq şöbəsinin müdiri Sevinc Novruzova, baş mütəxəssisi Firuzə Seyidzadə və BP-nin Etika və uyğunluq üzrə müşaviri Cəmilə İslamova çıxış ediblər.

Seminar sualların cavablandırılması ilə yekunlaşıb.

School of Economics and Management and Azerbaijan Ethics and Compliance Network (AECN) organized a seminar on "Essentials of Business Ethics" on April 26, The purpose of AECN and University relations is to develop and implement an action plan aiming at promotion of Ethics & Compliance culture among students.

The session was delivered by Ms. Sevinj Novruzova, Head of Ethics and Compliance Section, Azercell Telecom LLC and Ms. Firuza Seyidzade, Senior Specialist of Ethics and Compliance Section, Azercell Telecom LLC and Jamila Islamova, Ethics and Compliance Advisor, BP as AECN members. The session was interactive, and completed with question section.



# KANON ŞİRKƏTİNİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ
# CANON EMPLOYEES AT KHAZAR UNIVERSITY

Aprelin 28-də Canon şirkətinin Azərbaycandakı nümayəndəliyi Xəzər Universiteti ilə əməkdaşlıq çərçivəsində tələbələr üçün növbəti təqdimat keçirmişdir. Tədbirdə Xəzər Universitetinin rektoru İradə Xəlilova, Canon şirkətinin biznesin inkişafı üzrə meneceri Valeh Məhərrəmov, menecer köməkçisi Mehbarə Hüseynova, fotoqraf Bəhmən Mirzəyev, Xəzər Universitetinin əməkdaşları və tələbələri iştirak etmişdir.

Görüşü rektor İradə Xəlilova açaraq iştirakçıları salamladı, tədbirin işində uğurlar arzuladı. Valeh Məhərrəmov şirkət və görüşün məqsədi haqqında tələbələrə məlumat verdi, ardınca fotoqraf Bəhmən Mirzəyev tələbələrin marağına səbəb olan yarışma xarakterli təqdimatla çıxış etdi. Universitetin 6 tələbəsi suallara düzgün cavab verərək, Canon şirkətindən maraqlı hədiyyələr qazandılar.

Tədbirdən sonra Canon şirkətinin əməkdaşları Xəzər Universitetinin Multimedia Mərkəzində oldular, mərkəzin direktoru Natella Barkaya qonaqları mərkəzlə tanış etdi, mərkəzin məzunları, gördüyü işlər haqqında məlumat verdi.

Qeyd edək ki, aprelin 20-də Canon şirkəti Bakıdakı Excelsior otelində Xəzər Universiteti ilə əməkdaşlıq çərçivəsində "Yeni güzgüsüz kameralar" adlı ustad dərsi də keçirmişdi. Dərsdə iki peşəkar fotoqrafın yeni kameralar haqqında təqdimatı baş tutmuşdu. Sonra iştirakçılar yeni güzgüsüz kameraların iş prinsipi ilə tanış olmuş, fotoşəkillər üzərində yeni funksiyaları yoxlamışdılar.

Canon şirkəti ustad dərsində fəal iştirakına və fərqləndiyinə görə Xəzər Universitetinin iki tələbəsinə hədiyyə vermişdi.

On April 28, Canon's Azerbaijan Office hosted the nextpresentation in partnership with Khazar University thestudents.

The event was attended by Khazar University Rector Irada Khalilova, Canon Business Development Manager Valeh Maharramov, Assistant Manager Mehbara Huseynova, photographer Bahman Mirzayev, and Khazar University staffmembers and students.

Opening the meeting, Rector Irada Khalilova greeted the participants and wished them success in their work. Valeh Maharramov informed the students about the company and the purpose of the meeting, then the photographer Bahman Mirzayev made a competition presentation, which aroused the interest of students. Six students of the university answered the questions correctly and received interesting gifts from Canon.

After the event, Canon employees visited Khazar University's Multimedia Center, where the center's director, Natella Barkaya, introduced the guests to the center, and provided information about the center's graduates and the work it does.

Note that on April 20, Canon, in cooperation with Khazar University, held a master class entitled "New Mirrorless Cameras" at the Excelsior Hotel in Baku. During the masterclass, two professional photographers presented new cameras. Then the participants got acquainted with the working principle of the new mirrorless cameras and tested the new features on the photos.

Canon presented a gift to two Khazar University students for their active participation in the master class and for theirdistinction.

## DEPARTAMENT MÜDİRİ "AZƏRSU" VƏ MEDİA-NIN BİRGƏ TƏLİMİNDƏ

Aprelin 27-də"Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) media nümayəndələri üçün təlim keçiriblər.

Təlimin keçirilməsində məqsəd son dövrlər müşahidə olunan iqlim dəyişiklikləri, su ehtiyatları və onlardan səmərəli istifadə, əhalinin içməli və tullantı su xidmətlərindən istifadəsinin yaxşılaşdırılması sahəsində "Azərsu" ASC-nin həyata keçirdiyi tədbirlər barədə mətbuat nümayəndələrinin bilik və təcrübələrini artırmaq, onların bu sahədə ixtisaslaşmasına dəstək göstərməkdən ibarət idi..

Təlimdən əvvəl iştirakçılar Təlim və İnnovasiyalar Mərkəzi və mərkəzin təcrübə poliqonunda yaradılmış şəraitlə tanış olublar.

Sonra keçirilən təlimdə müvafiq mövzuda müxtəlif çıxışları dinləyiblər.

Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov "İqlim dəyişikliklərinin Azərbaycanın su ehtiyatlarına təsiri və sudan səmərəli istifadə" mövzusunda çıxış edib.

Təlimin sonunda iştirakçılara sertifikat təqdim olunub.

Ölkə saytları tədbir haqqında xəbər yatımlayıblar.

## DEPARTMENT HEAD AT JOINT TRAINING OF "AZERSU" AND MEDIA

On April 27, Azersu Open Joint-Stock Company together with the Media Development Agency of the Republic of Azerbaijan (MEDIA) held a training for media representatives.

The purpose of the training is to increase the knowledge and experience of media representatives on the measures taken by Azersu OJSC on recent climate changes, water resources and their efficient use, improving the population's access to drinking and wastewater services and to support their specialization in this field.

Prior to the training, the participants got acquainted with the conditions created at the Training and Innovation Center and with the conditions created at the experimental polygon of the center. Then listened to various speeches on the relevant topic.

Rovshan Abbasov, Head of the Department of Geography and the Environment at Khazar University, spoke on "The Impact of Climate Change on Azerbaijan's Water Resources and efficient use of water ". At the end of the training, participants were awarded certificates.

The country's websites published news about the event.

*https://adalet.az/az/posts/detail/media-numayendeleri-ucun-telimler-kecirilib-1651055445 və s.*

## TƏLƏBƏLƏR ARXEOLOGİYA VƏ ETNOQRAFİYA MUZEYİNDƏ

Aprelin 29-da Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayevanın rəhbərliyi ilə AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu nəzdindəki Arxeologiya və Etnoqrafiya Muzeyində olublar.

Muzeyin əməkdaşı Orxan Zamanov muzeydə sərgilənən İbtidai icma quruluşu dövrünə və orta əsrlərə aid olan, Azərbaycan xalqının adət-ənənələrini və maddi-mədəni irsini özündə əks etdirən eksponatlar haqqında məlumat vermişdir. Muzeydə nümayiş olunan arxeoloji maddi mədəniyyət nümunələri və eksponatlar tələbələr tərəfindən maraqla qarşılanmışdır.

## STUDENTS AT MUSEUM OF ARCHEOLOGY AND ETHNOGRAPHY

On April 29, 2022, students at Khazar University's School of Economics and Management, led by Kamala Mustafayeva, the lecturer in the Department of History and Archeology, visited the Museum of Archeology and Ethnography at the Institute of Archeology, Ethnography, and Anthropology at ANAS.

The employee of the museum Orkhan Zamanov informed about the items exhibited in the museum, which belong to the prehistoric period and the Middle Ages, reflecting the traditions and material and cultural heritage of the Azerbaijani people. Samples of archeological material culture and exhibits displayed in the museum were met with interest by the students.

## “XƏZƏR”İN ƏMƏKDAŞI *AZTV*-NİN “GÜN BAŞLADI” VERİLİŞİNDƏ

## KHAZAR UNIVERSITY STAFF MEMBER IN “THE DAY HAS STARTED” PROGRAM ON AZTV

2022-ci il aprelin 19-da Xəzər Universiteti Psixologiya Departamentinin koordinatoru Mələk Kərimova Azərbaycan Televiziyasının “Gün başladı” verilişinin qonağı olub. Verilişdə “çətin insanlar” və ünsiyyət çətinliklərini yaradan səbəblər müzakirə edilməklə yanaşı, ünsiyyət bacarıqlarının formalaşdırılması ilə bağlı təkliflər də səsləndirilib.

On April 19, 2022, Malak Karimova, Coordinator of Psychology Department at Khazar University, was a guest on Azerbaijan Television’s “The Day Has Started” program. The program discussed “difficult people” and the causes of communication difficulties, as well as suggestions for the formation of communication skills.

*https://youtu.be/fq9SNIqkVck*

## DEPARTAMENT MÜDİRİ AZTV-NİN “ƏSAS MƏSƏLƏ” VƏ “XƏBƏRLƏR” PROQRAMLARINDA

## DEPARTMENT HEAD IN THE PROGRAMS OF “MAIN ISSUE” AND “NEWS” ON AZTV

2022-ci il aprelin 25-də Xəzər Universiteti Tarix və Arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu AZTV- nin “Əsas Məsələ” və “Xəbərlər” proqramlarına qonaq olmuşdur. Adı gedən proqramlarda Erməni soyqırım yalanları və 1915-ci ildə Türkiyədə tüğyan edən Erməni terrorunu, o cümlədən Daşnaksütyun, Armenekan, Xınçaq kimi terror təşkilatlarının o dövr Türkiyə dövlətinin müharibə apardığı düşmən dövlətlərlə əməkdaşlıq edərək, üsyanlar yolu ilə işğala zəmin hazırlama təşəbbüsləri və Türkiyənin milli təhlükəsizliyin təmini baxımından həyata keçirmək məcburiyyətində qaldığı tədbirləri şərh etmişdir.

On April 25, 2022, Telman Nusratoglu, Head of the Department of History and Archeology at Khazar University, was a guest in AZTV’s “Main Issue” and “News” programs.He commented on the lies of the Armenian genocide and the Armenian terror that broke out in Turkey in 1915, as well as initiatives of terrorist organizations such as Dashnaktsutyun, Armenekan, Khinchag to prepare the ground for occupation through uprisings in cooperation with the enemy states of which the Turkey was at war at that time and the measures that Turkey has to take in terms of ensuring national security in the mentioned programs.



# VƏKİL KAMANDAR NƏSİBOV FƏRQLİ NÖVLƏRDƏ BEŞ MİNDƏN ÇOX DƏNİZ QABIQLARINA MALİKDİR

"Kolleksionerlik könül işidir. Bu işi ürəkdən edirəm. Hər birini sevərək toplamışam. Çox nadir nümunələrim var", - o bildirib.

K.Nəsibov kolleksiyasını 20 il ərzində toplayıb. Vəkil nümunələri kiçik muzeyə çevirib.

O, dünyanın dörd bir tərəfindən topladığı dəniz qabıqlarını vəkil bürosunun bir otağında sərgiləyir.

Buradakı kolleksiya nümunələri arasında lupa ilə görüləcək qədər kiçikdən tutmuş, əllə qaldırmaqda çətinlik çəkə biləcəyiniz qədər böyükləri var.

Vəkil, eyni zamanda, dəniz qabıqları ilə bağlı 100-dən çox kitab və kataloq toplayıb.



# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi